

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Yeganə sülh yolu Bakı ilə əməkdaşlıq etməkdən keçir"**



9

SƏS

№ 162 (6845)

8 sentyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Türk dünyasını birləşdirən siyasi güc



2

*Prezident İlham Əliyev: "Biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq"*

# İrəvanda davam edən RÜSVAYÇILIQ



4

## Qram-qram yox olan qrammatikamız




5

## Uşaqların yeni oyuncağı - SİQARET



7

## Əli Kərimli müxalifətə də ləkədir



14

## Kredit kartı məngənəsi: yararlı, ya zərərli?



15

## "Azərreyl" 4 voleybolçu ilə müqaviləni yenilədi




16

# Türk dünyasını birləşdirən siyasi güc



Prezident İlham Əliyev: ”Biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq”

***Türkdilli dövlətlərin arasında qurulan əməkdaşlıq daha da güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Qeyd edək ki, bu gün türk dövlətləri siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Qeyd edək ki, Türk Dövlətləri Təşkilatı türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsinə böyük imkanlar yaratmış oldu.***

Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

### İLK BEYNƏLXALQ TƏDBİR KİMİ TARİXƏ DÜŞƏN ZİRVƏ GÖRÜŞÜ

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının ”Türk Dövlətləri Təşkilatı”na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin ”Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, ”Türk dünyasına baxış – 2040” sənədinin qəbulu ilə bağlı Qərar, ”Türk dünyasının birliyinə verdiyi töhfələrə görə” Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır.

### “DÜNYA MİQYASINDA TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI ÖZ LAYİQLİ YERİNİ TUTA BİLİBDİR”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və “Bakı-2023” beynəlxalq təliminin iştirakçılarını qəbul edərkən Bakıda kecirilən Türk Dövlətləri Təşkilatının fövqəladə hallar nazirlərinin iclasını çox önəmli hadisə olaraq qiymətləndirib. “Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır”, - deyə Prezident bildirib.

Son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayının kəskin artdıgını bildirən dövlət başçısı bildirib ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib: “Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyəyə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq, bir daha başsağlığı vermək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir. Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq.Azərbaycanın bu istiqamətdə təcrübəsi kifayət qədər böyükdür”.

### TÜRK DÖVLƏTLƏRİARASI İRİMİQYASLI İNFRASTRUKTUR LAYİHƏLƏR REALLAŞDIRILIB

Vurğulamaq yerinə düşər ki, Azərbaycanın iqtisadi inkişafı regionda həyata keçirilən transmilli layihələrin uğurla reallaşmasına gətirib çıxarıb. İstismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı – Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s.-nin daşınmasını xeyli səmərəli edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilir. Türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirilməkdədir.

### “AZƏRBAYCAN BÜTÜN TÜRK DÜNYASINDA BİRLƏŞƏN QARDAŞLARIMIZIN HƏR ZAMAN YANINDA OLUBDUR”

“Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir” – deyən Prezident qeyd edib ki, təsadüfi deyil ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir: ”Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni, bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq. Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq”. Məlumdur ki, 2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etdi və ölkəmiz döyüş meydanında öz sözünü deyərək, Zəfər qazandı. Hamının bildiyi kimi, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan 2020-ci ilin sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə edərək, Türkiyənin Azərbaycanın yanında olmasını ifadə etdi. Türk Şurası sentyabrın 28-də Azərbaycana dəstək xarakterli açıqlama verdi.

Ən çətin anlarda türk dünyası Azərbaycanın, Azərbaycan türk dünyasının yanındadır. Türk dövlətləri ölkələr arasında yaxınlaşmanın, inteqrasiyanın inkişaf etməsində ciddi rol oynayıb və bundan sonra töhfələrini verəcəkdir.

***Zümrüd BAYRAMOVA***

## Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul edib

***Prezident İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı bu ilin yanvarında Davosda Prezident İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti ilə görüşü məmnunluqla xatırlandı.***



Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritet sahələr, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta Dəhliz istiqamətində əməkdaşlıq məsələləri müzakirə olundu.

Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, Bankın ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə ayırdığı kreditlərin vacibliyi qeyd olundu. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# “Yeniləşən Azərbaycana yeni məktəb”lər

***Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri nəticəsində tarixin çətin və taleyüklü sınaqlarından çıxaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycan dövləti günü-gündən daha da güclənərək, iqtisadi qüdrəti, dinamik inkişafı ilə seçilən dövlətlər sırasındadır. Azərbaycanda baş verən sıçrayışlardan, onun simasının gündən-günə dəyişməsindən, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasından danışarkən Heydər Əliyev Fondunun da fəaliyyətini vurğulamaq vacib məqamlardandır. Yarandığı zamandan Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələri reallaşdırır. Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirərək, respublikanın və xarici ölkələrin fondları ilə əməkdaşlıq edir.***



Qısa bir zamanda xalqlararası münasibətlərin möhkəmlənməsinə xidmət edən fəaliyyətini genişləndirdi. Məhz buna görə Heydər Əliyev Fondu bir sıra dost dövlətlərdə nümayəndəliklər yaratmağı, eləcə də bu ölkələrdə fəaliyyət göstərən analoji qeyri-hökumət qurumları ilə əməkdaşlıq əlaqələri qurmağı məqsədyönlü hesab edərək, Rusiya Federasiyasında, Rumıniyada, Türkiyədə və ABŞ-da nümayəndəliklərini yaratdı. Fondun bu nümayəndəlikləri Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırır.





Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi, mədəni həyatında gördüyü işlərə diqqət yetirsək nə qədər möhtəşəm hadisələrin reallaşdığının bir daha şahidinə çevrilərik.

Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın qısa bir zamanda Azərbaycan üçün gördüyü işlər bir əsrin tarixi qədər möhtəşəm və alidir. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı əsasında təhsil sahəsində mövcud olan problemlərin həllinə nail olundu. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla proqram çərçivəsində müasir standartlara cavab verən məktəb binaları inşa olunaraq yenidən quruldu. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində ölkənin hər bir yerində - Xaçmaz rayonunun Palıdlı kəndində, Şabran rayonunun Gilavar kəndində, Bakı şəhəri Sabunçu rayonunun Pirşağı qəsəbəsində, Zaqatalada Ələddin Cavadov adına Bəhmətli kəndində və digər yerlərdə onlarla yeni məktəb binaları inşa edilib.

## HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN 17 ORTA MƏKTƏB VƏ 2 BAĞÇA ÜÇÜN YENİ BİNA İNŞA OLUNUB

Görülən işlərin davamı olaraq, yeni tədris ilində Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi istifadəyə veriləcək. Belə ki, 15 Sentyabr - Bilik Günü ərəfəsində 19 məktəb və 3 məktəbəqədər müəssisə Bakıda və regionlarda müəllim və şagirdlərə hədiyyə edilmiş olacaq.

Bu təhsil ocaqlarının mövcud binaları istismara yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 17 orta məktəb və 2 bağça üçün yeni bina inşa olunub, eləcə də 3 məktəb və məktəbəqədər müəssisənin binası əsaslı təmir edilib.

Bununla da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsil sahəsində apardığı siyasətə dəstək göstərərək gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına öz töhfəsini vermiş olur.. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Qeyd edək ki, poqram hazırlanarkən Azərbaycanın məktəblərinin maddi-texniki bazasının vəziyyəti ətraflı öyrənilmişdir. Çox yaxşı, nümunəvi məktəblərimizlə yanaşı, acınacaqlı vəziyyətdə olan məktəblər də aşkarlanmışdır.

"Yeniləşən Azərbaycana yeni məktəb" Proqramını həyata keçirərkən ölkə üzrə vəziyyəti çox ağır hesab olunan 132 məktəb müəyyən edilmişdir. Bu məktəblərin hər birində videoçəkiliş aparılmışdır. Problemin həllinin ən yaxşı variantı həmin məktəblərin binaları qarşıdan yenisinin tikilməsi olmuşdur. Bunların 100, 200 və 400 yerlik məktəblər olacağı təyin edilmişdir. Fond tərəfindən artıq bu binaların əksəriyyətinin layihələri reallaşmışdır.

## “TƏHSİLƏ DƏSTƏK” - TƏDRİSİN KEYFİYYƏTİNİ YÜKSƏLTMƏK

Fondun “Təhsilə dəstək” proqramı çərçivəsində isə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur. Heydər Əliyev Fondunun həyata keçirdiyi "Təhsilə dəstək" layihəsi çərçivəsində Azərbaycandan kənarda belə, bu humanizm prinsiplərinə əsaslanan layihələr reallaşdırılır. Belə ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Həştərxanda yeni uşaq bağçası istifadəyə verilib. Heydər Əliyev Fondunun dəstəyi ilə Sarayevoda görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz istifadəyə verilib. ABŞ-ın Merilend ştatının Montqomeri dairəsində yerləşən ciddi fiziki və əqli qüsurlu uşaqların təhsil aldığı məktəblərə xeyriyyə yardımı göstərilib. Bu yardım əsasında məktəblər üçün kompyuterləşdirilmiş interaktiv lövhələr və əlil uşaqlar üçün müvafiq avadanlıq alınıb. Heydər Əliyev Fondu Fransanın Aşağı Normandiya regionun Orn departamentindəki Lüql musiqi məktəbinin bir zalının təmirinə yardım edib.

## GƏNC NƏSLİN TƏLİM-TƏRBİYƏSİNDƏ TƏDRİS OCAQLARININ ROLU

Mehriban xanım Əliyeva humanizm prinsiplərinə əsaslanaraq, köməyə ehtiyacı olan şəxslərə yardım edərək onların müalicəsinin təmin olunmasına da xüsusi diqqət ayırıb. Belə ki, kimsəsiz və dəstəyə ehtiyacı olan insanlara ehtiramla yanaşaraq, neçə-neçə kimsəsiz və imkansız şəxslərə, ailələrə kömək əlini uzatmışdır. Valideyn himayəsindən məhrum olan uşaqların maddi-texniki bazasının yenidən qurulmasında gördüyü işləri xüsusi qeyd etməliyik. Həmin müəssisələr Avropa standartlarına uyğun bir şəkildə təşkil olunub. Uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nizami rayonunda inşa olunmuş yaşayış binasının istifadəyə verilməsi humanizmin ən yüksək nümunəsi olaraq qiymətləndirilir.

Bu yeniləşmə təhsil sistemində də özünü göstərir. Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnməli, dünya təhsil sisteminə inteqrasiya olunmağı bacarmalıdır. Hazırlanmış proqramda da əsas məqsəd ölkəmizin hər bir gəncini daha bilikli, bacarıqlı, geniş dünyagörüşlü görməkdir. Amma böyüyən nəslin qarşısında belə tələblər qoyarkən, münasib şərait də yaratmaq vacib məsələlərdən biridir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə istifadəyə verilən bu məktəblər gənc nəslin təlim-tərbiyəsində, yüksək elmi biliklər əldə etməsinə öz təsirini göstərməkdədir.

**Nəzakət Ələddinqızı**

# İrəvanda davam edən RÜSVAYÇILIQ

***Ermənistan müxalifətinin şənbə günü üçün elan etdiyi etiraz aksiyası bir çox məqamları üzə çıxardı. İşğalçı ölkənin düz paytaxtında, İrəvanın Azadlıq meydanında cəmi 8 min etirazçının toplaşması həmin ölkə müxalifəti üçün, özlərini revanşist adlandıranlar üçün uğursuzluq hesab olunur. Heç şübhəsiz ki, etiraz aksiyasına toplaşanların sayının dəqiq açıqlanmaması da təsadüfi deyildi və bu, Ermənistan müxalifətinin öz uğursuzluğunu gizlətməsi, bədbinlik yaratmamaq niyyətindən irəli gəlir, amma özləri öz uğursuzluqlarını yaxşı görürlər.***

qalan, buna cavab verməkdə çətinlik çəkən Saqatelyan konkret bir söz deyə bilməyib. O, həmin suala qeyri-müəyyən cavab vermək məcburiyyətində qalıb. Yəni, əminlik ifadə edə bilməyib. “Bu bir nəfərin məsələsi deyil, bu, mübarizədir, ölüm-dirim mübarizəsi”, deyən “Daşnaqsütyun” nümayəndəsi İşxan Saqatelyan əslində, bununla vəziyyətdən çıxmağa çalışıb.

Qarabağ separatçılarının keçmiş başçısı, Ermənistan Respublikasının üçüncü prezidenti Serj Sarkisyan özü də etiraz aksiyası ilə bağlı ortaya çıxan, təzahür edən uğursuzluğu ört-basdır etmək üçün müəyyən izahata ehtiyac duyub. “Bu son dərəcə çətin, lakin guya ümidsiz olmayan vəziyyətdən çıxış yolu, dəfələrlə qeyd etdiyimiz kimi, ilk növbədə buna onlar mane belə ola bilməyiblər.

Xatırladığımız kimi, Ermənistan tərəfi müharibədə rüsvayçı məğlubiyyətlə qarşılaşdıqdan sonra, ermənilər məğlubiyyət acısını daddıqdan sonra, Azərbaycanın onilliklər ərzində işğal altında olan ərazilərini qarət edənlərdən ibarət qisasçılar növbədənkənar parlament seçkilərində Paşinyanı devirmək arzusunda olsalar da, arzuları ürəklərində qaldı. Onlar həmin dövrdə, “Vətənin xilası” adı altında hərəkat yaratsalar da, Ermənistanın baş naziri postuna Vazgen Manukyanın namizədliyini irəli sürsələr də bir nəticə əldə edə, kapitulyant kimi göstərdikləri Nikol Vovayeviç Paşinyanı hakimiyyətdən uzaqlaşdıra bilmədilər. Halbuki, belində çanta, əli sarıqlı



“Mübarizəmiz qələbə qazanacaq”, deyən “Daşnaqsütyun” nümayəndəsi, “Ermənistan” fraksiyasından olan deputat İşxan Saqatelyan aksiya zamanı etirazçıları ümidsiz olmamağa çağırıb. Bu isə o deməkdir ki, “Daşnaqsütyun” nümayəndəsi çox yaxşı başa düşüb ki, uğursuzluqla qarşılaşıblar. Məsələ burasındadır ki, etiraf etməyə çətinlik çəkib. Yeganə çıxış yolunu isə aksiyaya gələnlərə vəd verməkdə, təskinlik verməkdə görüb. “Ermənistanda milli hakimiyyət formalaşmalıdır. Bu hökumətin formalaşması üçün isə güc mənbəyi erməni xalqıdır. Bizə xalqımızın qeyd-şərtsiz dəstəyi lazımdır”, deyərək səsini ucaldan Saqatelyanın məhz dəstəyin olmaması qorxusu açıq-aşkar özünü büruzə vermiş olub.

Görünən odur ki, Saqatelyanın və özlərini revanşist adlandıran digər ermənilərin arzularını həyata keçirəcək, heç olmasa buna ümid belə yaradacaq qüvvə, say etiraz etiraz aksiyasında müşahidə edilməyib. Açıq şəkildə görünür ki, erməni xalqı, Ermənistan cəmiyyəti onların avantüralarına qeyd-şərtsiz dəstək nümayiş etdirməyib. “İndiki hakimiyyət nə vaxt gedəcək”, sualı qarşısında aciz antimilli hakimiyyətin aradan götürülməsindən keçir”, - deyən Sarkisyan əvvəla Ermənistan cəmiyyətinin çətin vəziyyətdə olduğunu etiraf edib. Digər tərəfdən isə, “ümidsiz olmayan vəziyyət”, deməklə, əslində, özünün ümidsizlik kömpleksi keçirdiyini ifşa edib. Həqiqətən də, Ermənistan Respublikasının üçüncü prezidenti olmuş biri üçün bu vəziyyət nəinki acınacaqlıdır, həm də çox rüsvayçı, biabırçıdır.

Xatırladaq ki, özlərinin “antimilli hakimiyyət” adlandırdıqları Nikol Paşinyan hakimiyyəti Serj Sarkisyanı 2018-ci ildə çox asanlıqla tarixin zibilliyinə göndərib. Amma bu gün qisas almaq niyyəti ilə ortaya atılan Serj bunun öhdəsindən gəlməkdə çətinlik çəkdiyini də qəbul edir, ümidsiz olmamaq tövsiyyə etməsi fonunda özünün ümidsiz vəziyyətdə olduğunu da ifşa edir. Revanşistlər üçün ən gülünc və rüsvayçı məqam ondan ibarətdir ki, onlar 44 günlük müharibədə məğlub olan, kapitulyasiya sənədini imzalayan birini hakimiyyətdən uzaqlaşdırmaq istədikləri halda, həmin o kapitulyant adlandırdıqları Nikol Paşinyan məğlubiyyətdən sonra da hakimiyyəti öz əlində saxlaya bilib və küçə nümayişçisi Paşinyan onları, illərlə özünü öz kürsüsündə möhkəmləndirmiş Sarkisyanı, onun komandasını hakimiyyətdən qovmağa nail olmuşdu və bunun üçün çətinlik belə çəkdiyini dilə gətirməmişdi. Yaxud da Nikolun ağlına ümidsizlik barədə nəinki danışmaq, heç düşünmək belə gəlməmişdi və onun həmin proseslərdə tam əminlikdə hərəkət etməsi fonunda indi Ermənistanın müxalifət qüvvələrinin, özlərini revanşist adlandıranların, hətta uzun müddət işğalçı ölkənin hakimiyyət kürsüsündə oturanların bunu bacara bilməməsi, hətta uğursuzluqları, ümidsizliyə düşmələri təkcə zəiflik, bacarıqsızlıq deyil, bu, hər şeydən əvvəl, onlar üçün çox rüsvayçı durumun təzahürü kimi yadda qalır. Elə indi də həmin o olanların ardınca heç istədikləri qədər etirazçı görmədikləri zaman uğursuzluqlarını dərk etmək məcburiyyətində qalıblar ki, bu, sözün əsl mənasında onlar üçün ən böyük rüsvayçılıqdır və rüsvayçılıqlarına hələ bundan sonra da rast gəlinəcəyi zərrə qədər şübhə doğurmur.

Həqiqətən də, erməni xalqı hələ o zaman da revanşistlərə şans vermədi. Heç indi də şans verəcəyini onlar yuxularında da görə bilməzlər. Ən azından bu, heç inandırıcı görünmür. Görünən odur ki, yenə də erməni müxalifəti, revanşistlər ümidsizlik girdabına düşüblər. Doğrudur, Nikol Paşinyan heç də arzu olunan bir ölkə rəhbəri deyil. O, ermənilərin arzuladıqları kimi, gözlədikləri kimi bir lider, ölkə rəhbəri ola bilmədi. Beli çantalı Nikol küçə nümayişlərindən hakimiyyətə özünü daşıyandan sonra ermənilərə “qızıl dağlar” vəd etdiyini heç xatırlamadı belə. Sanki o həmin Nikol deyildi və gündən-günə vəziyyəti pisləşən ermənilərin daha da səfalət içərisinə düşdüklərini hakimiyyəti qamarladıqdan sonra elə bil daha görə bilmədi. O, vədlərini də unutdu, səfalət içərisində olan cəmiyyəti də vecinə almadı. Üstəlik, müharibəni də labüd etdi, ən tez müddətdə, böyük rüsvayçılıqla məğlubiyyətə də, rəzalətə də imza atmalı oldu, hansı ki, bu, erməni cəmiyyəti üçün heç də ürəkaçan sayıla bilməzdi. Həmçinin, minlərlə erməni əsgərinin həyatını itirməsi fonunda hazırki erməni baş nazirinə olan simpatiyadan da danışmaq gülünc olardı. Bütün bunları qeyd etməkdə məqsəd hazırki erməni baş nazirini tərif etmək deyil və Nikol Paşinyan, ona öz ölkəsi daxilində münasibət müzakirə mövzusu da deyil. Amma ən ilginc maraqlı məqam odur ki, erməni xalqı həmin o tarixin zibilliyinə atılmış xuntadansa, cinayətkar hakimiyyətdənsə, revanşistlərdənsə elə kapitulyant dedikləri Nikol Paşinyanı üstün saydı, bəyənmədikləri birini, Nikolu seçməklə, əvvəlki hakimiyyəti necə arzulamadıqlarını, hətta nifrət etdiklərini göstərdilər və diqqətə çatdırmaq istədiyimiz həmin müqaisədir. Bu müqayisə onu göstərir ki, onların qətiyyən şansları yoxdur və bu rüsvayçılıq, bu xəcalət, bu biabırçılıq əslində, onlar üçün kifayətdir.

Ən rüsvayçı, ən biabırçı məqam isə, hakimiyyəti bərpa etmək üçün yeni cəhdin uğurlu ola biləcəyinə erməni xalqını revanşistlərin aldatmaq, onları inandırmaq istəyidir. Axı ümumilikdə haylar özləri də bəzi məsələləri görməyə başlayıblar və bu gün əgər rüsvayçı durumdadırlarsa, deməli, həmin duruma sürükləniblər. Artıq ermənilərə, sanki “sehrli çubuq” vasitəsilə vəziyyəti dəyişəcəkləri barədə nağıl danışa bilməyən Ermənistan hakimiyyəti də, həmin hakimiyyətə müxalifətdə olanlar da özlərini çox pis durumda hiss edirlər və bu onların hamısı üçün elə rəzalətdir, rüsvayçılıqdır və təbii ki, primitiv ifadələrdən ruhlanaraq, ermənilərin bu rüsvayçılıqlardan sonra onların hansınasa, ələlxüsus da revanşistlərə inanacağı ağıla sığan deyil.

***İnam Hacıyev***

# Türkiyədəki inflyasiya Azərbaycanda qiymətlərə necə təsir edəcək?



**İQTİSADÇI AÇIQLADI**

“Türkiyədə inflyasiya tempinin dinamikliyi sözsüz ki, qardaş ölkənin ixrac potensialına da mənfi təsir göstərir. Bu baxımdan ümumiyyətlə, Türkiyənin Mərkəzi Bankı və beynəlxalq maliyyə qurumlarının da qeyd etdiyi kimi, inflyasiyanın ikirəqəmli və böyük həddə davam etməsi nəzərdə tutulur. Çünki hələlik lirənin məzənnəsi sabitləşmir. Bu baxımdan əlbəttə ki,



Türkiyədə qiymətlərdə mütəmadi olaraq bahalaşma müşahidə olunur”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eyyub Kərimli deyib.

Onun sözlərinə görə, sözsüz ki, bunun Azərbaycanla idxal-ixrac və qarşılıqlı ticarət əlaqələrinə müəyyən təsiri olur: ”Azərbaycana idxal olunan məhsulların 14%-i Türkiyənin payına düşüb. Türkiyə ölkəmizin ikinci ən böyük ticarət tərəfdaşıdır. Türkiyədən Azərbaycana idxal edilən məhsulların qiymətində artım müşahidə edə bilərik. Doğrudur, uzunmüddətli perspektivdə qiymət artımı müşahidə olunacaq, amma qısamüddətli perspektivdə bir o qədər bunu hiss etməyəcəyik. Belə ki insanlar fərdi qaydada müəyyən məhsullar sifariş etsə, daha ucuz başa gələr. Lakin uzunmüddətli perspektivdə Türkiyədəki inflyasiya Azərbaycana idxal olunan məhsulların qiymətinə də təsir edəcək”.

***Ləman Sərraf***

# Qram-qram yox olan qrammatikamız




***Mirzə Fətəli Axundzadə 1875-ci il aprelin 21-də Həsənbəy Zərdabiyə göndərdiyi məktubda yazırdı: Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin edəcəyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir.***

Bəli, M.F.Axundzadə bu dəyərli fikirləri ilə mətbuatın dilimizin gözəlliyini, qrammatik qanunlarını qorumasını məsləhət görürdüsə, filologiya elmləri doktoru, professor Nəsir Əhmədli isə deyirdi ki, ixtisasından asılı olmayaraq hər bir ziyalı ana dilini mükəmməl bilməli, yeri gəldikcə onun təbliği ilə də məşğul olmalıdır.

Hər iki Azərbaycan ziyalısının dəyərli fikirlərindən yola çıxaraq bu gün həm mətbuatın, həm də ümumilikdə cəmiyyətimizin dilçilik qanunlarının əksinə getməsindən, nəticədə isə qram-qram yox olan qrammatikamızdan söhbət açmaq yerinə düşər.









### Bizə bu haqqı kim verir...

Mətbuatdan başlayaq... O mənada mətbuatdan başlayaq ki, çünki dilin qanunlarının qorunması birbaşa onun vəzifəsidir. Çünki mətbuat öz “məhsulunu” bütün cəmiyyətə təqdim edir və bu “məhsulun” keyfiyyəti dilimizin qorunmasına xidmət etməlidir. Düzdür, bu gün əvvəlki illərdəki qədər qəzet dərc olunmur. İndi daha çox saytlardan, agentliklərdən informasiya alırıq. Deməli, bu, daha təhlükəlidir. Ona görə ki, hazırda insanların böyük əksəriyyəti telefon vasitəsilə internet aləmindədir və burada onlara təqdim olanların hər birini evdə, işdə, yolda-hər yerdə oxuyur, məlumatlanır və dilimizi necə təqdim ediriksə, onu o cür də göz yaddaşına köçürür.

Lakin gəlin görək, biz mətbuat işçiləri dilimizi düzgün təqdim edə bilirikmi? İndi hər kəs bilir ki, mediamız peşəkarlıq bir yana, Azərbaycan dilinin orfoqrafiyasını doğru-düzgün bilməyən, yazını necə başlayıb necə qurtarmaqdan xəbərsiz, səhlövhələri də yazıları kimi şablon jurnalistlərlə doludur. Bu jurnalistlərin əksəriyyəti həm də plagiatlıqla məşğul olur. Onun-bunun yazısından hissələr götürməklə, sərlövhələr oğurlayıb özünəməxsus şəkildə dəyişdirməklə “fəaliyyət” göstərirlər. Sözün həqiqi mənasında, bunu da düzüb-qoşa bilmirlər. Yazılarında qrammatik qanunlar isə kobudcasına pozulur.

Qəzetin ictimaiyyətə təsir qüvvəsini dərk edən hər bir mətbuat işçisi bilməlidir ki, kütlə tərəfindən oxunan məqalədə orfoqrafiya səhvi özünü qabarıq formada göstərəcək və bu, heç də yaxşı qarşılanmayacaq. Məsələn, paronim sözlər bir hərf fərqi ilə tamamilə başqa-başqa mənaları ifadə edirlər. Lakin bəzən mətbuat nümunələrində “əsl” sözünün “əsil”, “serviz”in “servis”, “mətn”in “mətin”, “atlaz”ın “atlas”, “hərf”in “hərif”, “kəsr”in “kəsir”, “nəfs”in “nəfis”, “sənəd”in “sənət”, “xeyr”in “xeyir” və onlarla saya biləcəyimiz bu qəbildən olan sözlərin səhv yazılması ilə qarşılaşırıq. Mətnlərdə bu cür yerinə düşməyən sözlər ümumilikdə cümləni dolaşdırır, onun başa düşülməsi çətinləşir. Bəzən isə yanlış məlumata səbəb olur.

Mətbuatımızın yaralı yerlərindən biri də “o”, “bu” şəxs və işarə əvəzliklərinin qarışdırılmasıdır. Şəxs əvəzliyi kimi işlədiləndə vergül qoymuruq, işarə əvəzliyi kimi işlədəndə qoyuruq və nəticədə belə cümlələr yaranır; “O Vətən oğludur”, hansı ki, burada “o”dan sonra vergül qoyulmalıdır. Və yaxud da “O, diyar başdan-başa gözəllikdir”, hansı ki, burada “o” işarə əvəzliyidir və vergül olmamalıdır.

Müasir mətbuatımız qoşasamitli sözlərin yazılışında samitlərin birini nədənsə ya ixtisara salır, ya da bir samit tələb olunan sözlər qoşasamitli yazılır. Məsələn, çox teztez rast gəlirik ki, “tövsiyə” sözü “tövsiyyə”, “hədiyyə” sözü “hədiyə”, “maliyyə” “maliyə”, “səciyyəvi” “səciyəvi” kimi yazılır. Eyni zamanda, birlikdə və defislə yazılan sözləri də bir-birindən aralayırıq. Məsələn, “qızılgül”ü “qızıl gül”, “paltaryuyan”ı “paltar yuyan”, “qab-qaca”ğı “qab qaçaq”, “bir-birini” “bir biri” kimi yazırıq.

Yazılarımızda tez-tez belə ifadələrə rast gəlinir: “ilk öncə”, “daha layiqincə”, “həyata keçirilmişdir”, “yüksək mütəşəkkillik”, “şum qaldırmaq”, “gəldiyimdə”, “getdiyimdə”, “görüşdüyümdə” və sair onlarla belə ifadələr. Hansı ki, ilk və öncə eyni mənanı ifadə edir. “Layiqincə” sözü özünü yüksək səviyyədə ifadə etdiyi üçün onun qarşısında “daha” sözünə ehtiyac yoxdur. Mütəşəkkillik də elə yüksək səviyyə deməkdir, burada “yüksək”ə ehtiyac qalmır. Qaldı “gəldiyimdə”, “getdiyimdə” sözlərinə, bunların “gələndə”, “gedəndə” ilə ifadə olunması dilimizin qrammatik xüsusiyyətinə uyğundur.

Hələ türk və rus dillərində şifahi nitqimizdə istifadə etdiyimiz sözlərin yazıya da tətbiqini demirəm. Qarşılığı ola-ola bəzi sözlərin ərəb, rus və türk dilində yazılmasını demirəm. Nə üçün belə edirik? Bizə bu haqqı kim verir?

Kimsə bizi küçədə təhqir etsə, itələyib yıxsa, ayağımızı ayaqlasa, həmin dəqiqə üz tutarıq hüquq-mühafizə orqanlarına ki, hüququmuz tapdalanıb. Bəs dilimizin tapdaladığımız hüquqlarının müdafiəsinə, mühafizəsinə kim qalxmalıdır?

Yazının bu yerində sözlərin düzgün seçilməməsi, cümlənin məna çalarına laqeydlik göstərilməsi, yersiz təkrarlara yol verilməsi ilə əlaqədar Xalq şairi Osman Sarıvəllinin narahatlığını və gileyini ifadə edən misraları yada salmamaq olmur.

Biz mənalı sözlərin keşiyində dururuq,  
Lakin söz var, onu çox  
İşlədirik, yoruruq.  
Aramsız çeynənən söz  
Üzdü dili, dodağı.  
Təkrar yordu qələmi,  
Yordu gözü, qulağı.  
Həqiqətən ağırdır  
İnsafla baxsaq əgər,  
Çox da ki, yoxdur dili,-  
Söz də dincəlmək istər.

### Yazıq hərflər, nöqtələr, vergüllər...

Biz ətrafımızda canlı nə varsa, onun üçün təhlükə yaranan an “yazıq”,- deyib xilasına qaçırıq. Çünki özümüz də canlıyıq və hər bir canlının düşdüyü yazıq vəziyyətə biz də düşə bilərik.

Lakin tək canlılar yazıqdırmı? Heç bu barədə düşünən olubmu? Vallah, son dövrdə bəzi mətbuat orqanlarında oxuduğumuz yazılar və yaxud bəzi dövlət qurumlarında rastlaşdığımız sənədlər olur ki, bax, əsl yazığın hərf, nöqtə və vergülün olduğunu söyləyir.

Nə olar ki, cansız olanda. Cansız olanda, adam ona bu qədər məsuliyyətsizliklə, necə gəldi, yanaşar? Bir mətn oxuyursan, həm də adi mətn yox, xəbər, məqalə, məktub, deyirsən, İlahi, nə səbəbdən insanlar bu qədər aclıqla qarşılaşıb, bu hərfləri yeyib, üzərindən də su içiblər... Hələ nöqtə və vergülləri, digər durğu işarələrini demirik. İndi müasir gəncliyin bəzi nümayəndələri necə ki, əyinbaşında, danışığında, davranışında dəblə gedir, dilimizin qrammatikasına da əl gəzdirib, onu dəblə ayaqlaşmağa vadar ediblər. Odur ki, ta durğu işarələri dəbdən düşüb. Onlara ehtiyac duyulmur. Vergüllər ümumiyyətlə, unudulub, nöqtə də ki, yada düşəndən düşənə qoyulur.

**Ardı Səh. 6**

# Qram-qram yox olan qrammatikamız

Əvvəli-Səh-5

Beləliklə də oxuduğumuz xəbər, məqalə və məktublardan əsla baş açmayıb, başlayırıq yenidən oxumağa. Öz gücümüzə bir şey başa düşdük, düşdük, düşmədiksə, təəssüf olsun, deyib atırıq bir kənara. Yəni, deməyim odur ki, tək canlılar yazıq deyil. Onlardan da yazığı var, bunlar da hərf, nöqtə və vergüldür.

Düşünürsən ki, bax bu qrammatikamızın nə günahı var ki, insanlar onu bu günə qoyurlar? Ay bəylər, ay xanımlar, yaza bilmirsiniz, gedin, bildiyiniz işlə məşğul olun da. Yaza bilmirsiniz, nöqtənin harada, vergülün harada olacağını bilmirsinizsə, nə gəzirsiniz mətbuatda, nə gəzirsiniz dövlət qurumlarında? O qədər özəl işlər var ki, gedin başınızı salın aşağıya, özünüzə bab bir işlə məşğul olun da...Yazıq deyil bu hərflər, nöqtə və vergül? Nədir onların günahı?

İndi bəlkə onu da arzulayanlar var ki, nə olardı, Allah, elə bir qurğu olardı, bu hərfləri, nöqtə və vergülləri "kışlayıb" öz yerlərinə qovalayardı. Belə görürəm ki, onu da tapıb ortaya çıxaracaqlar. Necə ki, yerində olmayanlar var...

### Yeni ünsiyyət "dili"

Mətbuatdan danışdıq, gəlin bir qədər də ümumilikdə cəmiyyətimizin dilimizin qrammatikasına vurduğu zərbədən danışaq. Danışmaqmı? Məncə, artıq bu barədə danışmaq deyil, həyəcan təbili çalmaq lazımdır. Çünki indi insanlar, xüsusən də cəmiyyətimizin böyük bir hissəsini təşkil edən gənclər sosial şəbəkələrdə yeni bir ünsiyyət "dili" yaradıblar. Bu yeni "dil" dilimizin qrammatik xüsusiyyətlərinə ağır zərbə endirir.

Faktlara nəzər salaq: " Salam, canım, necəsən?"-" slm cnm ncsn", "Bu gün gəlirsən?"- "bugn gersən", "Həyatım, universitetdəsən?" – "heytm unidsn", "Səninçün çox darıxmışam, gəlirsən?" –"Sencn chox darxmwam gersn", "Sağ ol, görüşərik"-"Saol gorwrk", "Oldu"-"ok" kimi ifadə olunur. Budur, bir azərbaycanlının yazı forması: iingilislərin "w"su, türklərin "e"si, azərbaycanlıların bir neçə hərfi. Qeyd etdiklərim hələ gündəlik ünsiyyətin ən kiçik elementləridir. Gün uzunu dayanmayan, dincəlməyən insanlar sosial şəbəkələrdə öz aralarında formalaşdırdıqları bu yeni "dildə" səhifə-səhifə yazırlar, pozurlar. Və yazdıqca da dilimizin zənginliyinə, qrammatik xüsusiyyətlərinə zərbədir ki, endirirlər. Müşahidələrimə əsasən deyə bilərəm ki, bu cür yazı alışqanlığı insanların virtual " həyat"ından real həyatına da keçib. Dilimizə aid olmayan hərflərə, sözlərə gənclərin mühazirə dəftərlərində, digər insanların nə ilesə bağlı idarə, müəssisə, təşkilatlara müraciət məktublarında, hətta mağazalardan alacaqları ərzaq siyahılarında da rast gəlmək olar.

Gəlin etiraf edək ki, bəzən anlayaraq, bəzənsə fərqinə varmadan dilimizin qrammatik xüssusiyyətlərinə zərbədir ki, endiririk. Öz üzərimizdə işləmirik, oxumuruq, öyrənmirik. Bəzən yazmağa ərinirik. Bilə-bilə ki, səhv yazırıq, düzəltmək istəmirik. Bəzənsə, məndən düzgün yazan yoxdur,-deyib savadsızlığımızı lovğalığımıza qurban veririk.

### Gözəl və cazibədar dilimiz

Azərbaycan dili öz varlığını qorumaq üçün ardıcıl mübarizə aparmış, mənsub olduğu xalqla birlikdə inkişaf edərək çaxsahəli dünyəvi və elmi dil səviyyəsinə yüksəlmişdir. Bu işdə bədii söz ustalarımızın, ədəbiyyatımızın korifeylərinin əvəzsiz xidmətləri vardır. Onlar ümumxalq dilinə həmişə fəal münasibət bəsləmiş, onun zənginləşməsi və hərtərəfli inkişafı üçün böyük fədakarlıq göstərmişlər.

Tarixin müəyyən dövrlərində dilimiz düşmən qüvvələrin təzyiqinə, təcavüzünə məruz qalıb. Lakin xalqımız milli birliyi, milli qüruru sayəsində dilini qorumağa müvəffəq olub. Ulu Öndərimiz Heydər Əliyev bu ənənəni böyük əzmkarlıqla davam etdirmişdir. Onun xalqına olan sonsuz məhəbbəti ana dilimizi yüksəklərə qaldırmışdır. Ulu Öndərin ana dilinə münasibəti hər kəs üçün örnəkdir. O danışanda dilin səlisliyi, ahəngdarlığı, ifadəliliyi, obrazlılığı, fikrin çoxşaxəliliyi üz mimikasında tutmuş əl-qol jestlərinə qədər doğru-dürüstlüyü ilə insanı heyran qoyurdu.

Heydər Əliyev həm də dilimizin təəssübkeşi, qayğıkeşi idi. Məhz onun verdiyi fərman və sərəncamlarla dilimiz ən böyük qiymətini ala bilmişdir. Onun ana dilinə qayğısı sistemli xarakter daşıyırdı və o, Azərbaycan dilinin qorunub saxlanması, onun zənginləşməsi istiqamətində böyük işlər görmüşdür.

Xalqın hər bir nümayəndəsi öz dilinin təmizliyi uğrunda mübarizə aparmağa, dili yad ünsürlərdən qorumağa borcludur. Azərbaycan dilinin analoqu yoxdur. Bu dilin şirinliyini, gözəlliyini, cazibəsini heç bir dildə tapmaq olmaz. Biz başqa dillərə ehtiramla yanaşmaqla bərabər, ana dilimizə xüsusi diqqət yetirməli, onu yaşatmalıyıq. Çünki dilimiz varsa, biz də varıq.

Bu günün səhvini gələcək bizə bağışlamaz. Ona görə də belə həssas məsələlərdə bir-birimizə nəzarət etməli, onu ictimai qınaq obyektinə çevirməklə, bu gün qarşısını alıb sabaha aparmamalıyıq... Əks təqdirdə, hər gün bir az-qram-qram yox olan qrammatikamızla ümumilikdə Azərbaycan dilinə zərbə vurduğumuzu anlamalıyıq.

***Mətanət Məmmədova***

***P.S.** Əslində, dilin zənginliyinin göstəricilərindən biri də yazının qısa yazılmasıdır. Bu, həm də oxunaqlılığı artırır. Lakin "dərdli danışqan olar" misalı, çox danışmalı oldum...*

# Bolqarıstan mətbuatı Ermənistanın təxribatları haqqında yazır










Ermənistanın Azərbaycanla cari sülh prosesini pozmağa və vəziyyəti gərginləşdirməyə yönəlmiş təxribatları ilə bağlı məlumatlar Bolqarıstan mətbuatında geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, ölkənin xəbər agentlikləri Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrın 2-də verdiyi təxribat səciyyəli bəyanatı, son dövrlərdə Ermənistan və erməni diasporunun Azərbaycana qarşı aparılan çirkin təbliğat kampaniyası və sərhəd zonalarında artan silahlı təxribatlar barədə məlumatlar yayıblar.

Məlumatlarda Ermənistan baş nazirinin bəyanatının Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən qətiyyətlə pislənildiyi bildirilməklə, onun sülh prosesinə ciddi zərbə vurduğu qeyd edilib. Bu bəyanatın, eyni zamanda, Ermənistanın baş nazirinin bir müddət əvvəl səsləndirdiyi Qarabağ bölgəsi daxil, Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi barədə bəyanatı ilə ziddiyyət təşkil etdiyi vurğulanıb.

Xəbərlərdə, habelə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadən Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin dil, mədəni, dini və inzibati hüquqlarını təmin etməyə hazır olduğu, bölgədə qondarma separatçı qurumun buraxılmalı olduğu və Azərbaycanın bu ərazi üzərində suveren hüquqlarını güzəştə getməyəcəyi qeyd edilib. Ermənistan və erməni diasporunun Azərbaycana qarşı ölkəmizin guya Qarabağda "humanitar böhran" yaratmasını iddia edən təbliğat kampaniyasına başlaması, lakin ermənilərin Ağdam yolunu bağlaması və Qızıl Aypara Cəmiyyətinin göndərdiyi ərzaq məhsullarını qəbul etməkdən imtina etməsi bu iddiaların siyasi manipulyasiya xarakterli olduğunu üzə çıxardığı bildirilib.



# XİN: "Ermənistan Azərbaycana qarşı hərbi və siyasi təxribatlara son qoymalıdır"

***Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrın 7-də hökumətin iclasında Azərbaycanı bölgədə hərbi-siyasi vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi, guya Azərbaycanın ərazidə qüvvələr cəmləşdirməsi iddiaları irəli sürməsi Ermənistan tərəfinin növbəti saxta siyasi manipulyasiyasının tərkib hissəsidir.***

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində deyilir.

"Bölgədə təhlükəsizliyə əsl hədənin Ermənistan tərəfindən hərbi-siyasi təxribatların davam etməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı baş nazir daxil olmaqla Ermənistan tərəfinin davam edən iddiaları, öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri olduğu hər kəsə məlumdur. Bölgədə sülh və təhlükəsizliyin bərqərar olması üçün Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, hərbi və siyasi təxribatlara son qoymalı, sülh müqaviləsi üzrə danışıqlar prosesinin uğurla nəticələnməsi istiqamətində törədilən maneçilikləri dayandırmalıdır", - deyə şərhdə qeyd edilib.

# Uşaqların yeni oyuncağı - SİQARET

***Tütündən istifadə hazırda qlobal miqyasda qarşısı alına bilən ölümün yeganə ən böyük səbəbidir. İstər yetkinlik yaşına çatmış şəxslər, istərsə də uşaqlar bu bəlaya düçar olurlar. SİA dünyada və Azərbaycanda aktual olan bu problem ilə bağlı araşdırma aparıb.***



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, hər il dünyada təxminən 5 milyondan artıq insan tütün çəkməkdən, 600 min insan isə tütün çəkənlərin tüstüsünün təsirindən həyatını itirir. Passiv siqaret istifadəsi, yəni siqaret tüstüsünə məruzqalma dünyada ildə 1,2 milyon nəfərin ölüm səbəbidir. Hər il 8 milyon insan siqaret istifadəsi ilə bağlı səbəblərdən vəfat edir. Uşaq ölümlərinin 28 faizinin də siqaret tüstüsünə məruz qalmaqla bağlı olduğu bildirilir. Tədqiqatlarla müəyyənləşdirilib ki, siqaret tüstüsündə 4000-dək kimyəvi maddə var. Onların 250-si zərərli maddə, 50-si isə konserogen (xərçəng törədən) maddələrdir.

İnfarkt səbəblərindən biri olan siqaret...

Siqaretin səbəb olduğu xəstəliklər yalnız xərçənglə kifayətlənmir. Ağlımıza gəlməyən xəstəliklərin də siqaretlə əlaqəsi var. Bütün dünya üçün təhlükəyə çevrilən siqaret ürək-damar sisteminə mənfi təsir edir. Damar keçiriciliyini zəiflədir, kapilyar damarlarda qanın axmasını pozur, yəni hipoksiya əmələ gətirir. Siqaretin törətdiyi qorxulu xəstəliklərdən biri də infarktdır. Tütün məhsullarından istifadə edən şəxslərin ürəyində qan dövranı azalır və ürəyin fəaliyyəti zəifləməyə başlayır. Nikotin qan təzyiqinə səbəb olur, nəticədə insan infarkt keçirir.

### Siqaret çəkməklə özlərini sübut etməyə çalışırlar



Dünyada və Azərbaycanda tütünün insan orqanizminə ziyanları haqqında nə qədər çox təbliğat aparılsa da, təəssüflər olsun ki, ondan istifadə edənlərin sayı getdikcə artmaqdadır. Siqaretdən istifadə edənlər arasında azyaşlıların olması isə daha da təəssüf doğurur. Azərbaycanda keçirilmiş tədqiqatlar göstərir ki, 13-15 yaşlı məktəblilərin 10 faizi nə vaxtsa siqaretin dadına baxıb, 7 faizi hələ də siqaret çəkir. Siqaret çəkənlərin üçdəbiri bunu 10 yaşadək edib. Azyaşlılara siqaretin satılması qadağan olsa da, ölkəmizdə siqaret çəkən uşaqların sayı az deyil. Gizli və ya aşkar şəkildə fərqi yoxdur, onların sayı kifayət qədərdir. Bəs uşaqlar, ümumiyyətlə, insanlar niyə siqaret çəkməyə başlayır? Siqaret çəkənlərin böyük hissəsi isə problemlərini bu vərdişlə bir neçə dəqiqəlik unutduqlarını deyir. Amma uşaq və yeniyetmə siqaret çəkməyə başlayırsa, bu, ailə ilə bağlı ciddi narahatlıqdır. O ailədə mütləq ya bir stress, gərginlik, sözsöhbət mütəmadi davam edir. Bu da uşaqlarda pis vərdişlərə yönəlmə riskini artırır. Eyni zamanda, azyaşlılar siqaret çəkməklə sanki özlərini müstəqil insan kimi göstərmək, böyüdüklərini sübut etmək istəyirlər. Bəs, bu kimi halların qarşısı niyə alınmır? Cəmiyyətdə hansı çatışmazlıqlar tütün məmulatlarından istifadə edən azyaşlıların sayının artmasına gətirib çıxarır?



Məsələ ilə bağlı **tənqidçi sosioloq Aydın Xan Əbilov** öz fikirlərini bildirib: "Son illər xəstəxanalarda müalicə alanların əksəriyyətinin uşaqlar, yeniyetmələr və gənclər olması bir daha bizi zərərli vərdişlərə düçar olmuş vətəndaşlarımızla bağlı analiz aparmağa, monitorinqlər həyata keçirməyə vadar edir. Zərərli vərdişlər dedikdə keçmişdə, sadəcə, spirtli içkilər, tütün məhsullarından istifadə, uyuşdurucu maddələrə qurşanmaq kimi insan sağlamlığına mənfi təsir edən hərəkətlər nəzərdə tutulurdu. Lakin indi bu vərdişlərin sayı daha da çoxalıb. Tütün məhsulları, siqaretlər, xüsusilə də, hazırda dəbdə olan elektron siqaretlər, qəlyan, enerji içkiləri və yüngül dərəcədə narkotikdən istifadə edən uşaqların sayı günü-gündən artmaqdadır. İlk növbədə, siqaretdən istifadə edən yeniyetmə və azyaşlılar özlərini cəmiyyətə sübut etmək istəyirlər. Eyni zamanda, onlar bu zərərli məhsulları istehsal edən yerli və transmilli şirkətlərin qurbanına çevrilirlər. Sosial şəbəkələrdə də görürük ki, bir əlində siqaret, digərində enerji içkisi varkən şəkil paylaşanların əksəriyyəti yeniyetmələrdir, hansı ki, onlar "vorzakonluğu" özünə nümunə götürüblər. Həmin yeniyetmə və uşaqlarla həm ailə, həm məktəb və al təhsil müəssisələri, həm uşaq mərkəzləri, həm bələdiyyə, həm də mühit ciddi mübarizə aparmalıdır. Yalnız ictimai maarifləndirmə, qadağalar, cərimə və həbslərlə bunun qarşısını almaq mümkün deyil. Bunun üçün artıq ciddi addımlar atmaq lazımdır".

Bu mübarizə yolunda hansı addımların atılmasının vacib olduğu ilə bağlı isə tənqidçi xatırladıb ki, vaxtilə əxlaq və ya mənəviyyat polisinin yaradılması təklif edilib: "Onlar qanunu pozan şəxslərə qarşı amansız tədbirlər görməlidir. Tutaq ki, özü və ya ailəsi üçün azyaşlı uşağa siqaret satan market, köşk və xırda dükanlar birinci dəfə cərimələnməli, növbəti dəfə inzibati və cinayət məsuliyyətinə cəlb edilməli, üçüncü dəfə isə biznes lisenziyasından məhrum edilməli və ticarət müəssisəsi qapadılmalıdır. Məktəblər, bağçalar və mədəniyyət ocaqlarının yanında fəaliyyət göstərən ticarət ocaqları və hətta mağazalarda belə siqaret, elektron tütün məhsulları, qəlyanın satışı qəti qadağan edilməlidir. Bundan əlavə, saat 22:00-dan sonra həm böyüklərə, həm də uşaqlara alkoqollu və enerji içkiləri, tütün məhsulları satmaq, onlardan istifadə etmək qadağan edilməlidir. Əgər bu mübarizə tədbirləri görülməsə, biz yaxın gələcəkdə yeniyetmə, azyaşlı və gənclərdən ibarət xəstə, əlil, sağlamlığında ciddi problemlər olan böyük bir ordu ilə qarşılaşacağıq. Ona görə də ölkə olaraq uşaqların, gənclərin sağlamlığı üçün çalışmalıyıq".



"Gənclərin Anti-Narkomaniya" İctimai Birliyinin sədr müavini Büllur **Məmmədova da azyaşlıların tütündən istifadəsinə qarşı mübarizə yollarından danışıb:** "Azərbaycan Respublikası "Tütün və tütün məmulatları haqqında" Qanuna əsasən, 18 yaşından aşağı olan uşaqlara siqaretin satışı qəti qadağandır. Amma biz vətəndaş olaraq qanunlarımızı pozuruq. Hətta biz 9-10 yaşlı uşaqların siqaret aldığının canlı şahidləriyik. Bunun üçün mütləq şəkildə tütün satılan yerlərdə monitorinqlər keçirilməli, reydlər aparılmalı, cəza tədbirləri gücləndirilməlidir. Nəinki tütün satanlar, hətta istifadə edən azyaşlıların valideynləri də cəzalandırılsa, bu hallara qarşı qalib gələ bilərik. Tütünlə bağlı mövcud olan cəzaların da məbləği artmalıdır. Son zamanlarda tütünün qiymətinin artdığını müşahidə edirik. Amma bu, istifadəçilərin sayının azalmasına səbəb olmayıb. Əksinə, siqaret alanların sayı artmaqda davam edir. Bu vaxta qədər maarifləndirmə işləri



görülsə də, bu barədə proqramlar hazırlansa da, nəticə yoxdur. Bu o deməkdir ki, maarifləndirmə düzgün aparılmır. Cəzalar da sərtləşməlidir. Biz tütün zərərləri barədə nə qədər danışsaq da, qulaq asan yoxdur. Amma bizimlə birgə Azərbaycan polisi də reyd aparsa, onda daha yaxşı nəticə ala bilərik. Doğrudur, Azərbaycan polisi 24 saat xidmət başındadır, onların haqqını yeyə bilmərik. Amma istərdim ki, polislərimiz siqaret satışında da tədbirləri gücləndirsinlər. 1-2 ay ard-arda tütün satan ticarət məntəqələrində reyd aparılsa, müştərilər də artıq satılmadığını görüb əllərini üzəcəklər. Bununla da qismən tütündən istifadəni azalda bilərik. Bu sahədə vətəndaş cəmiyyəti aktiv olmalı, üzərinə daha böyük yük götürməlidir. Deməzdim ki, onlar bunu etmir. Sadəcə olaraq polislə birgə fəaliyyət göstərsələr daha effektiv olar".

### Qanun nə deyir?

Həqiqətən də məhəllə marketlərində, köşklərdə azyaşlılara sərbəst şəkildə siqaret satılır. Bunun qarşısını almaq üçün müəyyən tədbirlər görülsə də, məsələ hələ də öz həllini tapmayıb. Bəs, görək qanunlar nə deyir?

Bu barədə daha ətraflı məlumatı **hüquqşünas Vüqar Tumasov** verib: "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində 455-ci maddə "Etil (yeyinti) spirti, alkoqollu içkilər və ya tütün məmulatı ticarəti qaydalarının pozulması" haqqındadır. 455.1-də etil spirti, alkoqollu içkilər və ya tütün məmulatı ticarəti qaydalarının pozulmasına görə 50 manatdan 80 manatadək cərimə, eyni zamanda 455.2-dəhəmin



məhsulların yetkinlik yaşına çatmayanlara satışına görə 100 manat cərimə nəzərdə tutulub. Tütün məhsulları satan şəxslər istifadəçinin azyaşlı olub-olmadığından əmin olmaq üçün müştəridən şəxsiyyəti təsdiq edən sənəd tələb etməlidir. Əgər müştəri 18 yaşına çatmayıbsa, satıcı dərhal satışı dayandırmalıdır. Çünki bu məsələdə satıcı məsuliyyət daşıyır. Qanuna görə, ticarət obyektlərində 18 yaşına çatmayan şəxslərə tütün və tütün məmulatlarının satışını həyata keçirməməsi ilə bağlı elan xarakterli yazılar qeyd olunmalıdır".

### Siqaretdən necə qurtarmalı?

Doğrudur, siqaretin zərərlərindən, bu pis vərdişə qurşanmamaq üçün atıla biləcək addımlardan çox danışırıq. Lakin siqaret çəkən şəxsin onu necə tərgidəcəyi barədə danışanlar azdır. Siqaret çəkmək üçün müxtəlif bəhanələr gətirən şəxslər bu aludəçilikdən necə qurtula bilərlər?

Siqaretlə mübarizədə təbii müalicə ilk dəfə qədim Çində yaranıb. Bu müalicədə heç bir qatqıdan, dərmandan, iynədən, kimyəvi maddələrdən istifadə olunmur. Bioloji aktiv nöqtələrə təsir etməklə nəticə əldə edilir.

Nevropatoloqlar bildirir ki, bioloji aktiv nöqtələr də ən təbii müalicə növü sayılır. Bioloji nöqtələrin baş beyinlə birbaşa əlaqəsi bir çox nevroloji xəstəliklərin müalicəsinə yol açır. Bu terapiya tez bir zamanda baş ağrılarını və başqa ağrıları aradan qaldırır. Onların köməyi ilə beyin qabığı sahəsi aktivləşdirilir. Hansı ki orada neiromediatrlar ifraz olunur, bunlar da dopomin, serotin kimi maddələrdir.

Bu maddələr də sinir sisteminin siqnallarının ötürülməsində böyük rol oynayır. Bu nöqtələrə stimulyasiya etməklə siqnalların sinir hüceyrələrinə ötürülməsi yaxşılaşdırılır. Stimulyasiya siqnal keçiriciliyini yaxşılaşdırır, bununla da müsbət nəticələr əldə edilir. Palezlər, ifliclər aradan qaldırılır. Bundan başqa neyrometiratorlar psixi emosional vəziyyətdə də çox müsbət təsir göstərir. Buna görə də həyata keçirilən terapiya bir çox xəstəliklərin, o cümlədən, nevroloji xəstəliklərin müalicəsində tətbiq olunur. Depressiya, nevroz, yuxusuzluq, qorxu, həyəcan, özünə qapanma, hətta yuxunun yaxşılaşdırılmasında da müsbət təsir göstərir. Bu, ürək-damar, hərəkət-dayaq aparatı xəstəlikləri, əzələ, oynaq ağrılarında da effektiv üsuldur.

***Ləman Sərraf***

# Soçi görüşünün əks-sədası - Dünya mediası nə yazır?

Erdogan visits Putin in Russia's Sochi in bid to revive Ukraine grain deal

*Putin says the deal that allowed Ukraine to export grain will not be restored until the West lifts embargo on Russia.*



***Prezident Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putinin görüşü dünya mediasına damğa vurub. Soçidəki tarixi görüşdən sonra bütün dünyanın maraqla gözlədiyi ikitərəfli əməkdaşlıq, eləcə də Taxıl Müqaviləsi ilə bağlı məsələlərin yer aldığı görüşün təfərrüatları dünya mediasında öz izini buraxdı. Görüşü "son dəqiqə" kodu ilə işıqlandıran dünya mediası güc balansının dəyişməsində Türkiyənin rolunu vurğuladı.***

Türkiyənin sülh diplomatiyasına uyğun olaraq Qərb ölkələri ilə Rusiya arasında vasitəçi rolu bir daha gündəmə gələrkən, Prezident Ərdoğan məsələ ilə bağlı yeni təklif paketi hazırlandığını açıqlayıb. Ərdoğan görüşdə Rusiya liderini yeni taxıl sazişi təşəbbüsü ilə bağlı danışıqlara razı saldığını vurğulayarkən, Putinin yeni taxıl sazişi təşəbbüslərinin davam etdirilməsi və Qərb dünyasının Rusiyanın tələblərinə cavab verməsi lazım olduğunu ifadə etməsi dünya gündəminə müzakirə edilməkdədir. Çoxsaylı nəşrlər bir-birinin ardınca təhlillərlə müsahibənin manşetlərinə yer veriblər.

ABŞ-ın aparıcı qəzetlərindən olan "New York Times" "Putin və Ərdoğan görüşdü, əməkdaşlıq nümayiş olundu" başlıqlı xəbərində Putinin Qara dəniz taxıl müqaviləsi ilə bağlı şikayətlərini təkrarladığına diqqət çəkib. Prezident Ərdoğanın Putinin Qərb ölkələrinə qarşı çıxmasına baxmayaraq gündəmə yeni təkliflər gətirəcəyini qeyd edən "New York Times" iki liderin səmimi dialoquna diqqət çəkib. Türkiyə ilə Rusiya arasındakı müsbət əlaqələrin Qərbi təlatümdə qoyduğunu vurğulayan qəzet, xüsusilə təbii qaz məsələsində iki ölkə arasında əməkdaşlığın dərinləşəcəyinə dair siqnalların olduğunu yazıb.

ABŞ-ın başqa bir qəzeti "The Wall Street Journal" da Prezident Ərdoğanın sözlərinə istinad edib. Putinin taxıl müqaviləsinin yenilənməsi ilə bağlı narahatlığını dilə gətirməsindən sonra Türkiyənin həll yolu üzərində fokuslandığını vurğulayan qəzet, "Ərdoğan, yeni təklifləri ilə məsələnin həll olunacağına" inandığını vurğulayıb.

## Türkiyənin təklifi masa üzərindədir

Beynəlxalq xəbər agentliyi AFP görüş barəsində "Türkiyənin taxıl sazişi üçün yeni təklifləri var" adlı geniş təhlil yazıb. Prezident Ərdoğan və Putinin mətbuat konfransındakı sözlərini təfərrüatlandıran AFP Rusiya ilə Türkiyə arasındakı münasibətlərdə irəliləyişlərə diqqət çəkib.

AP Soçi görüşünü "Putin Qərb tələblərini yerinə yetirməyincə taxıl müqaviləsini yeniləməyəcəyini deyir" başlığı ilə oxucularının görüşünə gətirib. Ötən il Türkiyənin vasitəçiliyi ilə imzalanan sənədin "dönüş nöqtəsi" olduğunu bildirən AP Prezident Ərdoğanın yeni təklif paketini ortaya qoyduğunu bildirib. AP razılaşmanın gələcəyinin tərəflər arasında aparılan danışıqlardan asılı olduğunu vurğulayıb. Beynəlxalq xəbər agentliyinə danışan ekspertlər, müqavilənin uzadılmadığı təqdirdə, Misir və Sudan kimi Qara dəniz taxılından asılı olan ölkələrdə ciddi təsirlərin görünəcəyini bildiriblər.

Britaniyanın "The Guardian" qəzeti ətraflı təhlillə Soçi görüşünü manşetlərinə çıxarıb. Soçidəki üzbəüz görüşdən sonra Qara dəniz taxıl müqaviləsinin dirçəldilməsinin hələ də əldə olunmadığına diqqət çəkən "The Guardian", "Əvvəlki böyük razılaşmanın memarı olan Türkiyə Rusiyanı yenidən razı salacaq" deyə yazıb.

Putin will statt Getreidedeal ein Gas-Verteilerzentrum in der Türkei

Das Getreideabkommen sicherte Milliarden Tonnen an wichtigen Lebensmitteln für die Welt. Eine Neuauflage ist vorerst gescheitert – offenbar auch am komplizierten Verhältnis von Putin und Erdogan.

Ozan Demircan Christoph Herwartz

04.09.2023 - 16:52 Uhr • 1 Kommentar • 1 x geteilt



Prezident Ərdoğanın "İnanıram ki, Türkiyə olaraq gözləntiləri qarşılayacaq bir həllə qısa zamanda çatacağıq" ifadəsini vurğulayan "The Guardian" Rusiyanın Ukraynanı işğalında daha geniş sülh danışıqlarına başlayacağı təqdirdə Ərdoğanın böyük ehtimalla aparıcı vasitəçilərdən biri olacağını şərh edib.

"CNN International" "Putin və Ərdoğan güc balansının dəyişməsini müzakirə etmək üçün görüşdülər" başlığı ilə oxucuların qarşısına çıxıb. Putinlə prezident Ərdoğan arasındakı dostluq əlaqələrinin təfərrüatlarını təqdim edən CNN, təxminən bir ildən sonra ilk dəfə üz-üzə görüşən liderlərin təkbətək görüşdən sonra kameralar qarşısına keçdiklərini bildirib. CNN də görüşdən sonra güc balansının dəyişdiyini vurğulayıb. Türkiyənin Rusiya üçün Qərbə açılan yeganə pəncərə olduğunu deyən CNN Putinin Ankara ilə münasibətlərinə böyük önəm verdiyini vurğulayıb. Analitiklərin fikirlərinin yer aldığı məqalədə hazırkı cədvəldə qüvvələr nisbətinin dəyişməsinin Ərdoğanın isə xeyrinə olduğu barədə bəyanatlar yer alıb.

"Politico" jurnalı "Putin Ərdoğana sanksiyaların qaldırılacağı təqdirdə Rusiyanın taxıl sazişini yenidən başlamağa hazır olduğunu söylədi" başlığı xəbərində iki liderin enerji əməkdaşlığında irəliləyiş əldə etdiklərinin vurğulanıb. Qərb ölkələrinin sanksiyaları yumşaldacağı təqdirdə Ukraynanın milyonlarla ton taxıl ixracına icazə verəcəklərini vurğulayan Putinin vurğuladığına diqqət çəkən Politico Prezident Ərdoğanın həll üçün yeni təkliflər təqdim etdiyini bildirib.

Alman Handelsblatt "Putin Türkiyədə taxıl müqaviləsi əvəzinə qaz paylama mərkəzi istəyir" başlığı ilə oxucularının qarşısına çıxıb. İki ölkə arasında əlaqələrin daha da dərinləşdiyinə diqqət çəkən qəzet, "Putin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə ilk olaraq enerji məsələlərində Türkiyə ilə daha sıx əməkdaşlığı müzakirə etmək istədiyini" yazıb. Türkiyədə qazpaylama mərkəzinin yaradılması yaxın vaxtlarda yekunlaşacaq. Putinin "Türkiyə üzərindən ixracа da hazırıq" mesajının vurğulayan Alman qəzeti, taxıl müqaviləsi ilə bağlı danışıqların davam edəcəyini bildirib.

Qətərin Əl-Cəzirə telekanalı "Ərdoğan, Ukrayna taxıl müqaviləsini canlandırmaq təklifi üçün Soçidə Putini ziyarət etdi" başlıqlı xəbərində Putinin razılaşmaya qayıtmaq üçün sanksiyaların ləğvini şərtləndirdiyini qeyd edib.

## Ərdoğan Putini razı salıb

Prezident Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putinin Soçi görüşü dünya mediasında böyük marağa səbəb olub. İclasda yeni taxıl sazişi təşəbbüslərinin davam etdirilməsinin vacibliyi vurğulansa da, bu çərçivədə dünya mediasının prezident Ərdoğanın Rusiya lideri Putini yeni taxıl sazişi təşəbbüsünü müzakirə etməyə razı saldığını vurğulaması diqqət çəkir. Budur təfərrüatlar...

Prezident Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putinin Soçi sammitində keçirdiyi görüşlər dünya mediasında böyük marağa səbəb olub. Bir çox beynəlxalq və regional məsələlərin müzakirə olunduğu toplantıda dünyanın gözü ərzaq böhranının gələcəyi ilə bağlı bəyanatlarda idi. İclasda yeni taxıl sazişi cəhdlərinin davam etməli və Qərb dünyasının Rusiyanın tələblərini yerinə yetirməli olduğu bildirilib. Bu kontekstdə dünya mediasının prezident Ərdoğanın Rusiya lideri Putini yeni taxıl sazişi təşəbbüsünü müzakirə etməyə razı saldığını vurğulaması diqqət çəkib.

*Friendly Putin-Erdogan Meeting Keeps West Guessing*

Any notion that President Recep Tayyip Erdogan of Turkey might be shifting away from his friendly ties with the Kremlin appeared to evaporate on Monday.

Share full article



Reuters: Putin Soçi sammitində Ərdoğanla görüşündən sonra yeni taxıl sazişi təşəbbüsünün müzakirəsinə açıq olduğu mesajını verdi. Ərdoğan isə Qara dəniz taxıl anlaşmasının tezliklə əldə oluna biləcəyini və razılaşmanın yenidən canlandırılacağını düşündüyünü bildirib.

AP: Rusiya lideri Putin bəyan edib ki, Qərb dünyası onun tələblərinə cavab verərsə, yeni taxıl sazişi mümkün olacaq.

Əl-Cəzirə: İki lider qida böhranını həll etmək üçün işlərinin davam edəcəyi mesajını verdi. Liderlər Moskvanın iyul ayında tərk etdiyi Qara dəniz taxıl sazişini canlandırmaq yollarını müzakirə ediblər. Putin bildirib ki, Rusiya taxıl ixracına qoyulan məhdudiyyətlər aradan qaldırılan kimi bu sazişi bərpa etməyə hazırdır.

Euronews: Liderlər taxıl ixracı ilə bağlı razılaşmaya yenidən baxılacağını vurğulayıblar.

EURACTIV: Soçidə Putin və Ərdoğan qaz qovşağı və taxıl müqaviləsini müzakirə ediblər

DW: Türkiyə lideri Ərdoğan ümid edir ki, Rusiya taxıl sazişini tezliklə yeniləyəcək.

## BMT-dən Taxıl Dəhlizi bəyanatı

Birləşmiş Millətlər Təşkilatının (BMT) Humanitar Məsələlər üzrə Koordinasiya Ofisinin (OCHA) sözçüsü Yens Laerke, Qara Dəniz Taxıl Təşəbbüsünün canlandırılmasına diqqət yetirdiklərini söyləyib ki, bunun Qara dənizdə təhlükəsizliyin artıracağına inanırıq: "Biz inanırıq ki, Qara Dəniz Təşəbbüsünə qayıdış həm Rusiya Federasiyasından, həm də Ukraynadan milyonlarla ton taxıl və gübrə ixracını asanlaşdıracaq, bazarları rahatlaşdıracaq və Qara dənizdə dəniz təhlükəsizliyini artıracaq".

Prezident Rəcəb Tayyib Ərdoğan Soçidə Rusiya prezidenti Vladimir Putinlə keçirdiyi mətbuat konfransında "İnanırıq ki, təşəbbüsün çatışmazlıqları aradan qaldırılaraq davam etdirilməlidir. İkitərəfli görüşümüzdə bu mövzuda fikirlərimizi dəyərli dostumla səmimiyyətlə paylaşdım. Bu çərçivədə, Birləşmiş Millətlər Təşkilatı ilə məsləhətləşmələr və mühüm irəliləyişləri ehtiva edən yeni təkliflər "Paket hazırladıq. İnanıram ki, bu yeni proses vasitəsilə nəticə əldə etmək mümkün olacaq. Türkiyə olaraq biz də bu problemin həllinə nail olacağımıza inanırıq".

BMT-nin baş katibi Antonio Quterreş avqustun 31-də verdiyi açıqlamasında Rusiyanın təşəbbüslə bağlı şikayət və tələblərini də nəzərdən keçirdiklərini qeyd edərək, "Rusiya xarici işlər naziri Sergey Lavrova məktub göndərərək Qara Dəniz Taxıl Təşəbbüsünün yenilənməsi üçün konkret təkliflər təqdim etdim", deyib.

"Yeni müqavilə sabit olmalıdır. Biz böhrandan böhrana doğru sürüklənən və həmişəlik dayandırılan təşəbbüs istəmirik. İşləyən və faydalı olan təşəbbüsü dəstəkləyirik". Quterreş bildirib ki, təkliflər Rusiya ərzaq və gübrələrinin qlobal bazarlara daha effektiv və sərfəli qiymətlərlə çıxmasını təmin etmək məqsədi daşıyır.

Ukrayna-Rusiya müharibəsinin qlobal ərzaq qiymətlərinə təsirini azaltmaq üçün 22 iyul 2022-ci il tarixində İstanbulda keçirilən mərasimdə BMT, Rusiya, Türkiyə və Ukrayna Qara Dəniz Taxıl Təşəbbüsü sazişini imzalayıb. Kremlin sözçüsü Dmitriy Peskov iyulun 17-də vaxtı bitmiş sazişlə bağlı açıqlama verib: "Taxıl dəhlizi sazişi əslində başa çatıb, dayandırılıb. Müvafiq şərtlər yerinə yetirilən kimi Rusiya dərhal taxıl sazişinə qayıdacaq. Rusiya ilə bağlı razılaşmanın bir hissəsi yerinə yetirilməyib".

İyulun 17-də başa çatan taxıl dəhlizi sazişinin yenilənməsi zərurətinin dünya gündəmində olduğu günlərdə diqqətlər Ərdoğan-Putin görüşünə yönəlmişdi. Ankara Vilnüs sammitində İsveçin NATO üzvlüyünə yaşıl işıq yandırdıqdan sonra Türkiyə ilə Qərb arasında münasibətlərin canlandığı bir vaxtda bu görüşün "çətin" keçəcəyini düşünənlər də oldu. Hamının razılaşdığı məqam odur ki, Ərdoğanla Putin arasında çox xüsusi bir lider diplomatiyası var. Yenə 2015-ci ildən sonra yenidən qurulan Türkiyə-Rusiya münasibətlərinin özünəməxsus xüsusiyyətləri var. Suriyada qarşıdurma riskini idarə edən iki lider enerji və turizmdən müdafiəyə qədər bir çox sahədə əməkdaşlıqlarını gücləndirib və dərinləşdiriblər. İki ölkə arasında ticarət həcmi 69 milyard dollara çatarkən, hədəf 100 milyard dollar olaraq təyin olunub. Akkuyu Nüvə Reaktorundan sonra Sinopda yeni reaktorun tikintisi də danışıqlar masasındadır. Ukraynadakı müharibə Türkiyə-Rusiya münasibətlərinin xarakterini müəyyən qədər dəyişib. Sanksiyalara qatılmayan Türkiyə həm strateji muxtariyyətini nümayiş etdirib, həm də müstəsna balans siyasəti həyata keçirib. Bu gün Ərdoğan həm Putin, həm də Zelenski ilə görüşərək diplomatiyanı idarə edə biləcək yeganə liderdir. O, Rusiya və Ukrayna ilə münasibətləri pozmadan bu balansı saxlaya bilib. Taxıl dəhlizi və əsir mübadiləsi Ukraynada müharibə zamanı ən mühüm diplomatik inkişafdır. Bu rola görə bütün paytaxtların gözü Soçidə idi. Prezident Ərdoğanın karvanı Soçi küçələrindən keçərkən səkilərdə gözləyənlərin marağı gah video çəkiliş, gah da dalğa kimi özünü göstərirdi. Bu marağın arxasında Türkiyənin NATO ittifaqında olmasına baxmayaraq sanksiyalarda iştirak etməməsi dayanırdı. Digər faktor isə Ərdoğanın xalqa çata bilən və bəyənilən liderlik xüsusiyyətləri idi.

**V.VƏLİYEV**

# “Yeganə sülh yolu Bakı ilə əməkdaşlıq etməkdən keçir”



## Elçin Əmirbəyov: Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır

***Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün proses gedir və Avropa İttifaqı, xüsusilə də Prezident Şarl Mişel bu prosesə dəstək göstərir. Lakin Ermənistan bütün dünyada Azərbaycanı günahlandırmaq taktikasını seçərək, sülh prosesində iştirak görüntüsü yaratmağa, status-kvonu saxlamağa və danışıqlarda tərəqqi əldə olunmadığı halda bütün günahı Azərbaycan tərəfinin üzərinə qoymağa çalışır. Lakin Azərbaycan tərəfi sülh prosesinə sadiqdir, Ermənistana sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların yenidən açılmasını təklif edib. Hansısa güzəştə heç bir vəchlə razı olmayan və Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır. Onlar Azərbaycan və digər təşkilatların əraziyə humanitar yardım çatdırmasının qarşısını alan da məhz həmin separatçılardır.***

SİA AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyovun Almaniyanın “Deutsche Welle“ telekanalı üçün müsahibəsində yer alıb. Azərbaycanın Qarabağ regionunda humanitar vəziyyət və guya Laçın yolunun bağlanması ilə əhalinin ac qalması barədə suala aydınlıq gətirən Azərbaycan rəsmisi bildirib ki, ilk növbədə Ermənistanın Azərbaycanın 20 faiz ərazisini 30 il ərzində işğalda saxladığını nəzərə almaq lazımdır. Həmçinin Laçın yolunun blokadada olması da doğru fikir deyil, çünki hər iki istiqamətdə Qırmızı Xaç Komitəsinin vasitəsilə insanların hərəkəti, dərman və s. daşınması təmin olunursa, bu zaman blokadadan danışmaq mümkün deyil. Buna baxmayaraq Qarabağda yaşayan insanlar bir qrup separatçının girovuna çevrilib.

Azərbaycan Qarabağdakı əhali ilə ünsiyyət və onların Azərbaycan cəmiyyətinə inteqrasiyasına hazırdır. Laçına məhdud keçid var, Azərbaycan bu vəziyyətə yenidən baxa bilər, eyni zamanda separatçılar əraziyə yüklərin çatdırılması üçün başqa yollardan istifadəyə qarşı çıxmalıdırlar. Onların Ağdam yolundan imtinasına dair fikri ilə heç də hamı razı deyil.

E. Əmirbəyov qeyd edib ki, Azərbaycan ABŞ, Rusiya və digər ölkələrlə həll yollarının tapılması üzərində işləyir. Əsas iş sülh razılaşmasını əldə etmək, sərhədlərin delimitasiyasına nail olmaqdır. Lakin, təəssüf ki, bütün proses Ermənistanın atdığı addımların əsirinə çevrilir. Aydın olmalıdır ki, yeganə sülh yolu Bakı ilə əməkdaşlıq etməkdən keçir.

Guya Qarabağdakı erməni əhalinin genosidə məruz qalmasına dair suala cavab verən E. Əmirbəyov qeyd edib ki, məsələyə beynəlxalq hüquq aspektindən baxılmalıdır və ərazidə baş verənlər bu tip sözlərin əsassız şəkildə istifadə edildiyini göstərir. Sülhün əldə olunması üçün yeganə yol hər iki tərəfin öhdəliklərini yerinə yetirməsindən keçir və Azərbaycan bu prosesi bütün istiqamətlər üzrə aparır. Lakin Ermənistan üçtərəfli bəyanatın bəzi maddələrini hələ də icra etmir, on min hərbçi və ağır hərbi texnikasını Azərbaycan ərazisindən çıxarmır, eləcə də Azərbaycan ərazilərini minalayır. Müharibə cinayətlərində günahkar olan Ermənistan sözdə deyil, əməldə iş görməli, Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır.

Müsahibədə, həmçinin bildirilib ki, nə qədər separatçılar Ermənistan ordusu Qarabağda qalır, Azərbaycan üçün təhlükə davam edəcəkdir və dünyanı qondarma humanitar böhranla aldatmaq lazım deyil. Aİ öz fəaliyyətini gücləndirməlidir, çünki əslində bu il sülh müqaviləsi üzərində işi bitirmək lazım idi, lakin indi əsas fəaliyyət erməni yalanlarını neytrallaşdırmaq və həqiqətin nədən ibarət olduğunu göstərməkdən ibarətdir. E. Əmirbəyov qeyd edib ki, erməni tərəfi, istər Ermənistan ərazisindən, istərsə də Qarabağda tez-tez atəşkəsi pozur, sərhəddə təxribatlar törədilir. Azərbaycan regionda müharibə istəmir və dünyanın diqqəti sülh prosesinə yönəlməlidir. Ermənistanın saxta təbliğatı, manipulyasiyası və beynəlxalq təşkilatlardan alət kimi istifadəsinə son qoyulmalıdır.

# “Ermənilərin davranışları siyasi manipulyasiyadan başqa bir şey deyil”





*“Azərbaycan regionda sülh və təhlükəsizliyin təmin olunmasında maraqlıdır. Lakin Ermənistanın və onun havadarlarının davranışları dayanıqlı sülhün əldə olunmasına imkan vermir. Son zamanlar isə guya Laçın-Xankəndi yolunun bağlı olması və Qarabağ ermənilərinin “blokada şəraitində” qalması barədə iddialar səsləndirilir.*

ABŞ Dövlət katibi Antoni Blinkenin sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngində də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb”. Bu fikirləri SİA-ya Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, Prezident İlham Əliyev telefon söhbəti zamanı prinsipial mövqeyini bir daha ABŞ rəsminin diqqətinə çatdırıb: ”Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni maneə və əngəllər yaradır, Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yol ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Artıq hamıya məlumdur ki, ermənilərin davranışları siyasi manipulyasiyadan başqa bir şey deyil. Əgər həqiqətən “humanitar böhran” varsa, yardımların onlar üçün hansı yolla çatdırılmasının fərqi olmamalıdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yükləri çatdırılsa da, 10 gündür ki, qanunsuz separatçı rejimin bundan imtina edir, humanitar yardımların dinc əhaliyə çatdırılmasına imkan vermir. Prezident İlham Əliyevin dediyi kimi, dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır. Digər tərəfdən, Ağdam-Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın-Xankəndi yolu açıla bilər”.

Millət vəkilinin sözlərinə görə, Ermənistan tərəfindən “Laçın” sərhəd-keçid məntəqəsinin qarşısına Azərbaycanla razılaşdırmadan humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir: ”Cənab Prezident bu məqamı da Antoni Blinkenin diqqətinə çatdırıb. Dövlətimizin başçısı Azərbaycanın Qarabağın erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət edilməsinə baxmayaraq, onların bundan imtina etdiklərini xatırladıb”.

“Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən proses qlobal miqyasda diqqət mərkəzindədir. ABŞ da bölgədə sülhün təmin olunması üçün maraqlı görünür. Bu dövlətin Azərbaycanla Ermənistan arasında münasibətin normallaşdırılması prosesində fəal vasitəçiliyi də bunu təsdiqləyir. Təsadüfi deyil ki, sülh sazişi üzrə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin indiyədək keçirdiyi altı görüşdən üçü məhz ABŞ-da baş tutub. Telefon söhbəti zamanı Antoni Blinken sülh müqaviləsinin imzalanması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcəklərini bildirib, Bakı ilə Xankəndi arasında birbaşa təmasları dəstəklədiklərini vurğulayıb. ABŞ-ın bu mövqeyi təqdirəlayiqdir. Lakin ABŞ Ermənistana qeyri-konstruktiv mövqeyindən əl çəkməsi üçün təzyiq göstərməlidir. Vaşinqtonun bunun üçün kifayət qədər imkanları var”,- deyə Sevinc Fətəliyeva vurğulayıb.

**Ləman Sərraf**

# “Əmlakların sığortalanması məcburidir”

***“Azərbaycanda daşınmaz əmlakın sığortalanması "İcbari sığortalar haqqında" qanunla tənzimlənir”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.***



**AYDINLIQ GƏTİRİLDİ**

Onun sözlərinə görə, qanuna əsasən, ölkəmizdə mövcud olan yaşayış və qeyri-yaşayış əmlaklarının sığortalanması məcburidir: “Daşınmaz əmlakın icbari sığortası olmayan fiziki şəxslərə 30, vəzifəli şəxslərə 80, hüquqi şəxslərə isə 200 manat məbləğində cərimə nəzərdə tutulub. Bakıdakı ev və mənzillərin illik sığorta haqqı 50, Gəncə, Sumqayıt və Naxçıvanda 40, digər şəhər və rayonlarda isə 30 manatdır. Müvafiq olaraq, paytaxtdakı mənzillərə 25 min manat, Gəncə, Sumqayıt və Naxçıvandakılara 20 min, digər şəhər və rayonlardakı mənzillərə isə 15 min manat sığorta təminatı verilir. Qeyri-yaşayış obyektlərinin sığorta tarifləri isə əmlakın yerləşdiyi yerə, təyinatına və həcminə görə müəyyən edilir”.

Fariz Əkbərov sözlərinə belə davam edib: “Qanun mülkiyyət hüququnun təsdiqlənməsi haqqında çıxarışı (kupçası) olan bütün mənzillərin sığortalanmasını tələb edir. Qəza vəziyyətində olan, tikintisi başa çatmayan, özbaşına tikilmiş və ya sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi mənzil və evlər isə sığortalana bilməz. Qanundan irəli gələn tələblərə görə, yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində qısaqapanma, maşınların, aparatların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən daxil olan su nəticəsində subasma və digər oxşar hallar sığorta hadisəsidir. Həmçinin təbii fəlakətlər- zəlzələ, vulkan, firtina, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi də daşınmaz əmlakın icbari sığorta növü üzrə sığorta hadisəsi hesab olunur”.

**Ayşən Vəli**

# “Aqrar sahənin inkişafı üçün çox böyük potensial var"

“İşğaldan azad olunmuş ərazilər aqrar sahənin inkişafı üçün çox böyük potensiala malikdir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri diqqətə çatdırıb ki, bu ərazilər işğaldan əvvəl də böyük kənd təsərrüfatı rayonları olub və bu rayonlarda üzüm, pambıq, taxıl əkilib, heyvandarlıq inkişaf edib, digər kənd təsərrüfatı məhsulları yetişdirilib və bu gün artıq həmin ərazilərdə həyat yenidən canlanmaqdadır.



## KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

“Torpaqlar minalardan təmizlənir, ərazilər sürətlə yenidən qurulur və insanlar öz ata-baba yurdlarına qayıdırlar. Zəngilana, Füsuliyə, Laçına insanların qayıdışı və orada yaradılan şərait bir daha sübut edir ki, ölkəmizin başçısı cənab İlham Əliyevin dediyi kimi, həmin ərazilər tez bir zamanda cənnətə çevriləcək, ölkənin ən mədəni, inkişaf edən regionları sırasında olacaqdır.



Əlbəttə ki, görülən işlərin miqyası çox genişdir. Artıq ərazidə iki beynəlxalq təyyarə meydanı tikilib istifadəyə verilib, üçüncü təyyarə meydanının inşasına başlanıb, çox böyük əhəmiyyətə malik olan yollar çəkilib, tunellər qazılır, körpülər salınıb və yeni yaşayış binaları tikilməkdədir. Bu, əlbəttə ki, aqrar sahənin gələcək inkişafı üçün çox böyük əhəmiyyətə malik olacaq və insanların işləməsi, yaşaması üçün imkanlar yaradacaqdır.

Sözsüz ki, torpaqlar minalardan təmizlənməlidir və uzun müddət əkilib-becərilməmiş qalan həmin ərazilər əkin dövriyyəsinə daxil olunmalıdır və yeni infrastruktur layihələri həyata keçirilməlidir ki, həmin torpaqlar istənilən məhsulu verə bilsin. Heç şübhəsiz ki, həmin ərazilərdə yüz hektarlarla torpaq sahəsi kənd təsərrüfatı üçün artıq yararlı hala salınıb və yay aylarında heyvandarlıqla məşğul olan fermerlər həmin ərazilərə, xüsusilə Kəlbəcər zonasına köçürülüblər. Arı ailələri həmin yerdə məskunlaşır və sozsüz ki, insanların ərazilərə köçürülməsi bu gedişi daha da sürətləndirəcək.

İşğal altında olan rayonlar çox böyük kənd təsərrüfatı imkanlarına malikdirlər və onlar özlərinin təbii şəraitinə görə gələcəkdə heyvandarlığın taxılçılığın, üzümçülüyün, pambıqçılığın, arıçılığın, bağçılığın inkişafında mühüm rol oynayacaqlar. Əlbəttə ki, bu bizim hər birimizi sevindirir, çünki həmin torpaqlar sovetlər dövründə ölkənin ümumi kənd təsərrüfatı məhsullarının hardasa, on beş faizini təmin ediblər. Ancaq bu gün dövr, zaman tamam başqadır və yeni texnologiyalar, yeni metodlar meydandadır və belə olan halda, həmin torpaqların yararlı hala salınması, həmin torpaqların əkin dövriyyəsinə daxil edilməsi daha yüksək məhsuldarlıqdan xəbər verir. Bu gün həmin ərazilərdə gedən işlər, görülən o böyük tədbirlər, ölkə rəhbərinin nəzarəti, tapşırığı ilə həyata keçirilən tədbirlər deməyə əsas verir ki, həmin ərazilər nəinki aqrar sektor üçün əlçatan olacaqdır, eləcə də həmin regionlarda turizmin inkişafı, həmin ərazilərdə məşğulluğun təmin edilməsi, həmin ərazilərdə mədəni, tarixi nailiyyətlərin ələ edilməsi əlçatan olacaq”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Darya Qrevtsova: “Ermənistan belə etdikcə Rusiya Azərbaycanı daha çox dəstəkləyəcək”

***Ermənistanın baş naziri Nikol Paşinyan İtaliyanın “La Repubblica” qəzetinə müsahibəsində Rusiyanı İrəvana qarşı külli miqdarda günah işlətməkdə ittiham edib. Xüsusən də o, bir daha KTMT-dən gileylənib, ona deyiblər ki, Ermənistan bu blokun üzvü kimi mövqeyindən istifadə edərək Azərbaycana qarşı çıxa bilməz. Paşinyan qeyd edib ki, Moskva Laçın yoluna nəzarət etmək istəmir, ümumiyyətlə, regional proseslərdə tam iştirak etmək istəmir.***



Siyasi Araşdırmalar İnstitutunun direktor müavini, rusiyalı politoloq Darya Qrevtsova Paşinyanın açıqlamalarını “Caliber” analitik mərkəzinə şərh edərkən onun Rusiyaya qarşı təxribat xarakterli hücumunu əsassız və sağlam düşüncədən uzaq adlandırıb. Politoloqun şərhini oxucularımıza təqdim edirik.

“Nikol Paşinyanın İtaliya nəşrlərindən birinə verdiyi müsahibədə sərt və mənfi bəyanatları Moskvaya təsirsiz ötüşməyib və şübhəsiz ki, onu qıcıqlandırıb. Aydındır ki, Paşinyan qərbyönümlüdür və xaricdəki əlaqələri sayəsində hakimiyyəti ələ keçirib və indi o, Ermənistanın Rusiyadan aralanması siyasətini fəal şəkildə təbliğ edir. Baxmayaraq ki, çox güman ki, Ermənistanın baş naziri iki kresloda oturub həm Qərbə, həm də Rusiyaya xidmət etmək istərdi, amma gördüyümüz kimi, buna nail olmur.



Onun KTMT əleyhinə sərt bəyanatlar verməsinin səbəbi də budur. Açığı, rəsmi İrəvan KTMT-nin Ermənistanı müdafiə etməməsindən qıcıqlanıb. Lakin Ermənistanda heç də nəzərə almırlar ki, KTMT-nin dəstəyini əsaslı səbəbdən görməyiblər. Məlumdur ki, KTMT-yə üzv olan bütün ölkələr Qarabağın Azərbaycanın tərkib hissəsi olması prinsipinə sadiqdirlər, bu isə o deməkdir ki, İrəvanın hərbi blokun dəstəyinə ümid bəsləməsi sadəlövhlük idi. KTMT Ermənistana yardımı başqa dövlətin ərazisinə getdiyi şəraitdə deyil, öz ərazisinə real müdaxilə təhlükəsi ilə üzləşdiyi halda verə bilərdi.

Etiraf edirəm ki, Ermənistanın baş naziri çox istərdi ki, rus əsgərləri Ermənistanın maraqları üçün döyüşsün və o da bu zaman Qərblə əməkdaşlıq etsin. Amma bu baş vermir. Rusiya da öz növbəsində Ermənistandakı prosesləri diqqətlə izləyir və müvafiq nəticələr çıxarır, digər məsələlərlə yanaşı qeyd edir ki, Ermənistan liderinin Rusiya əleyhinə açıq bəyanatları hardasa kənarda deyil, birbaşa nüfuzlu xarici nəşrlər vasitəsilə səsləndirilir”- Qrevtsova qeyd edir.

Ona görə də Paşinyanın Rusiyanın Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaratmasına heç bir şəkildə müdaxilə etməməsindən narazılığı, ekspertin fikrincə, tamamilə absurddur.

“Birincisi ona görə ki, Paşinyan özü şəxsən etiraf edib ki, Qarabağ Azərbaycanın ərazisidir. İkincisi, Azərbaycanın müvafiq olaraq heç kimdən- nə Rusiyadan, nə Ermənistandan, nə də başqa ölkələrdən icazə almadan öz ərazisində sərhəd keçid məntəqəsi yaratmaq hüququ var. Üçüncüsü, Azərbaycanın təbii sərvətləri qeyri-qanuni talan edildiyindən, onların qeyri-qanuni ixracı və Ermənistan hakimiyyəti tərəfindən zənginləşdirilməsi həyata keçirildiyi üçün sərhəd keçid məntəqəsinin yaradılması zəruri idi. Ermənistan üçün sərhəddə nəzarət-buraxılış məntəqəsinin quraşdırılması əsl sarsıntı idi və bu, əslində onu “blokada” və “ac ermənilər” haqqında uydurmaları şişirtməyə məcbur etdi, bu, əlbəttə ki, doğru deyil. Ermənistan da eyni məqsədlə Ağdam-Xankəndi yolunun açılmasına mane olur, çünki başa düşür ki, əgər bu marşrutun etibarlılığını tanıyacaqsa, o zaman Azərbaycanın bütün şərtləri ilə tam razılaşmalı olacaq.

Deməli, Paşinyan “blokada” mifini təbliğ etməklə həm də Rusiyanı fəaliyyətsizlikdə, Azərbaycana təsir etməməkdə ittiham etməyə çalışır. Baxmayaraq ki, Rusiyanın bununla heç bir əlaqəsi yoxdur. Ermənistan özü Azərbaycanla danışıqlar aparmalı və sülh müqaviləsinin bağlanmasına doğru getməlidir. Paşinyan bildirir ki, Ermənistanı narahat edən Rusiya Qafqazdakı vəziyyətə nəzarət edə bilmir və ya idarə edə bilmir və dərhal bütün ümidin Qərbdə olduğuna eyham vurur, çünki Rusiya Federasiyası Qafqazda əsas oyunçu mövqeyini itirir.

Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan lideri Rusiya Federasiyasını regiondan sıxışdırıb çıxarmağı gözləyən Avropa ölkələrini, əsasən də, Fransanı sevindirmək istəyir. Bu məqsədlə həm Fransa, həm də ABŞ axmaqcasına Ermənistandan və Paşinyanın özündən oyuncaq kimi istifadə edirlər. Amma Ermənistanın baş naziri bütün bu məqamları, eləcə də yatan və Qərbin onlara kömək edəcəyini görən erməni cəmiyyətini boş görmür. Bu arada Rusiya Cənubi Qafqazı tərk etmək niyyətində deyil və öz yerini Qərbə verməyəcək, xüsusən də, hələ də Aİİ və KTMT-nin bir hissəsi olan Ermənistanda”,- rusiyalı ekspert vurğulayır.

Eyni zamanda, Qrevtsovanın sözlərinə görə, bu gün Paşinyanın hakimiyyət dəyişikliyi ehtimalı da istisna edilmir, lakin o, Qərbin maraqlarını təmin edə bildiyi müddətcə hakimiyyəti saxlaya biləcək.

“Digər tərəfdən, Ermənistan müxalifəti kifayət qədər zəif və çox dağınıqdır, Paşinyanı devirmək üçün vahid mərkəzi nüvə, lazımi resurslar yoxdur. Deməli, nə Qarabağ, nə də başqa klan daxili proseslərə köklü təsir göstərmək iqtidarında deyil. Rusiya da indi Paşinyan hakimiyyətinin öhdəsindən gələ bilmir- o öz problemlərinin öhdəsindən gəlməli idi, amma Qərb, dediyim kimi, Paşinyanın siyasətindən tam razıdır.

Müvafiq olaraq, Ermənistanda hakimiyyət dəyişikliyi üçün heç bir ciddi ilkin şərt görmürəm. Qarabağ klanına gəlincə, o, əhali arasında populyar deyil və Ermənistanda da hökm sürən revanşist qüvvələr ölkədəki daxili siyasi vəziyyətə köklü təsir göstərmək iqtidarında deyil. Deməli, Paşinyanın Rusiyaya qarşı aqressiv ritorikası davam etdikcə, Rusiya Azərbaycanı daha çox dəstəkləyəcək.

Digər tərəfdən, Bakının İrəvandan fərqli olaraq, Rusiya Federasiyasının yaxın münasibətlərdə olduğu proqnozlaşdırıla bilən tərəfdaş olması vacibdir, ona görə də Rusiyanı daim tənqid edən Ermənistanla müqayisədə Azərbaycanla qarşılıqlı fəaliyyət üçün daha çox ilkin şərtlər var. Deyə bilərik ki, Ermənistan özü Rusiyanı Azərbaycanla daha güclü müttəfiqlik etməyə itələyir”,- deyən Qrevtsova bildirir ki, Ermənistana müharibə sərf etməz, çünki Azərbaycan dəfələrlə güclüdür.

***Tərcümə - Elçin Bayramlı***

# Ermənistana növbəti xəbərdarlıq və dərs - "Dəmir Yumruq" yerindədir!



## PREZİDENT İLHAM ƏLİYEV
## Ermənistana və havadarlarına bu xəbərdarlıqdan nəticə çıxarmağı tövsiyə etdi

***Heç kəsə sirr deyil ki, Ermənistan dövləti 30 ilə yaxın bir müddətdə dünya ictimaiyyətinin gözü qarşısında öz təcavüzkar siyasətini həyata keçirib, Azərbaycan xalqı erməni millətçiləri tərəfindən soyqırımına və etnik təmizləmələrə məruz qalıb. Azərbaycan 2020-ci ildə, 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiyası, ordusunun darmadağın edilməsi və fiaskosu ilə başa çatdı. Buna rəğmən, müharibənin nəticələrindən dərs almayan Ermənistan rəhbərliyi aqressiya və radikalizmi davam etdirir, təxribatlarına son qoymaq əvəzinə vəziyyəti qəsdən gərginləşdirir.***





Azərbaycan tərəfinin Ağdam-Xankəndi yolu ilə Qarabağda yaşayan ermənilərə yardım etməsini qəbul edə bilməyən Ermənistan öz kinini, nifrətini terror gücü ilə qusmağa çalışır. Lakin dövr o dövr deyil. Artıq dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycan həqiqətlərinə açıq gözlə baxmağa başlayıblar. Ermənistanın təxribatları heç bir nəticə verməyəcək. İrəvanın sülhə getməkdən başqa yolu yoxdur. Əks halda Azərbaycanın Güclü, Qalib Lideri, Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasətinə daima hazır olan Yenilməz Ordusu var! Qazanılan Zəfər təkcə silahın gücü deyil, Prezidentin, millətin liderinin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun məntiqi nəticəsi idi. Və Prezident İlham Əliyevin əməli addımları, dünyanın nüfuzlu telekanallarına müsahibələrində Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə onların başa düşəcəyi dildə çox böyük qətiyyətlə çatdırması, əlbəttə ki, qlobal auditoriyanın diqqətindən kənarda qalmır.

### PREZİDENT İLHAM ƏLİYEV "EURONEWS"A VERDİYİ MÜSAHİBƏ ERMƏNİSTAN RƏHBƏRLİYİ, İSTƏRSƏ DƏ QƏRB DÖVLƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ TƏRƏFİNDƏN SƏSLƏNDİRİLƏN QEYRİ-ADEKVAT AÇIQLAMALARA TUTARLI CAVABI

Bəli, Prezident İlham Əliyevin "Euronews" televiziyasında yayımlanan müsahibəsi həm informasiya yükü, həm də yeni mesajlar baxımından zəngin olmaqla yanaşı, həm də istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavabdır. Prezident qonşularımızla formalaşan münasibətlərə də toxunaraq hələ ki, yek və ilk olaraq imzalanmış atəşkəs sazişinin, yəni, 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi Rusiya Federasiyasının Cənubi Qafqazda sülhün təmin olunmasında rolundan danışıb, məhz Rusiya-Ukrayna müharibəsindən sonra Birləşmiş Ştatların və Avropa İttifaqının fəallaşdığını qeyd edib. Və iki ölkə arasında razılaşmanın əldə edilməsinə, sülh müqaviləsinin imzalanmasına mane olan amilləri göstərib. Ermənistanın hərbi-siyasi rəhbərliyinin manevrləri, xarici güc mərkəzlərinin prosesə neqativ təsirləri detallı şəkildə təsvir edilir. Həmçinin beynəlxalq təşkilatların Qarabağ münaqişəsinin kökündə dayanan "erməni separatizmi"nə ikili standartlarla yanaşmaları tənqid olunub.Belə olan halda

### ""DƏMİR YUMRUQ" YERİNDƏDİR!"

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman vurğulayır ki, "Dəmir yumruq" yerindədir. Və bu gün ermənilər bəzi xarici ölkələrdən dəstək görürlər. Bu ölkələr arasında aparıcı rolu oynayan Fransadır. Ermənistan düşünür ki, bu məsələni uzatmaq olacaq. Lakin onlar qəbul etməlidir ki, dünya dəyişilib. Dünyada yeni geopolitik siyasət həyata keçirilir. Bugünkü gündə Azərbaycanı dəstəkləyən kifayət qədər ölkə var. Onlar bu dəyişiklikləri ya görmürlər, ya da görüb həyasızcasına nəzərə almırlar. Ümumilikdə son vaxtlar Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələr də onu göstərir ki, regionda sülhün və sabitliyin bərqərar olması üçün mütləq şəkildə qarşılıqlı olaraq ərazilərin tanınması prioritet olmalıdır. Bu günə kimi olan danışıqlarda Azərbaycan və Ermənistan arasında yeni proseslərlə bağlı bir sıra vacib məsələlərdə ortaq məxrəcə gəlib razılıq əldə olunmuşdu. Lakin sərhədlərin və ərazilərin hələ də qarşılıqlı olaraq tanınmaması və nəqliyyat xətlərinin açılışını nəzərdə tutan razılaşmaların hələ də baş tutmaması, sözsüz ki, Ermənistan hakimiyyətinin apardığı qeyri-konstruktiv siyasətin nəticəsidir.

Ermənistan və onun rəhbəri hələ ki, prosesi pozmaq üçün sərhəddə gərginlik yaratmaq, sərhədlərin delimitasiya və demarkasiyasına getməmək, qarşılıqlı olaraq ərazi bütövlüyünü tanımamaq və bütün bunların yekunu olaraq sülh sazişi imzalamamaq yolunu seçib. Lakin əminliklə deyə bilərik ki, indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan Ermənistanın təxribatçı əməllərinin qarşısını qətiyyətlə alacaq və Ali Baş Komandanımızın söylədiyi kimi: ""Dəmir yumruq" yerindədir".

Bəli və "Dəmir yumruq" yerindədir, bu sadəcə güc deyil, bu birlikdir və bu birliyin nəticəsində 44 gün davam edən əks-hücum əməliyyatları Qalib Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətinə Müzəffər Ordumuzun igid əsgər və zabitlərinin rəşadəti ilə işğal altında olan torpaqlarımızın böyük bir hissəsini hərb yolu ilə işğaldan azad etdi, düşmənə çox ağır zərbələr vurmaqla Ermənistan kapitulyasiya oldu. Və əsrlər boyu davam edən erməni yalanlarının ifşasına və ən vacibi də ölkəmizin vətənpərvərliyinin, qələbə əzminin və xalq-iqtidar birliyinin nümayiş olunmasına gətirib-çıxardı. Bir sözlə, haqq, ədalət bərpa olundu.

Bir sözlə, dövlətçiliyimizin ən şərəfli səhifələrini yazan bu zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına Ali Baş Komandanımızın "Dəmir yumruq" əməliyyatı ilə son qoydu. Beləliklə

### "BİZ ƏDALƏTİ GÜC HESABINA BƏRPA ETMİŞ ÖLKƏ OLARAQ YENİ SÜLH PROSESİNİN MÜƏLLİFİ OLDUQ"

"2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində deyib.

Azərbaycanın Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladığını və ictimaiyyət qarşısında bunu açıqladığını vurğulayan dövlətimizin başçısı bildirib: "Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Sonra yenə boşluq yarandı. Sonra isə biz sülh sazişin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq".

Göründüyü kimi, Ermənistan nə 10 noyabr bəyanatı, nə Soçi bəyanatı, nə də Brüssel bəyanatının müddəalarını yerinə yetirmir. Ermənistanın məqsədi odur ki, regionda daim "gərginlik" olduğunu göstərsin. Bütün bunlar isə nəticədə sülh və etimad mühitini təhdid edir. Ermənistanın vaxtaşırı bu cür davranışları həm də sübut edir ki, bu ölkədən vint kimi hələ də istifadə edirlər. Ermənistan müxtəlif dövlətlərin bölgədə təsir forpostudur və bu missiyadan da imtina etmək iradələri yoxdur. Belə olan halda, dövlət başçımızın söylədiyi kimi, "Dəmir yumruq" hər zaman yerindədir: ""Dəmir yumruq" hər zaman yerindədir. Əgər Ermənistan provokasiyalara davam etsə, bunun nəticələri özləri üçün dağıdıcı olacaq. Nəzərə alanda ki, Ermənistanın təxribatları təkcə Azərbaycana deyil, həm də rəsmi Moskvanın siyasi vasitəçilik imkanlarına qarşıdır, həm də Brüsseli gözdən salır, burada digər tərəflərin də üzərinə iş düşür. Bütövlükdə Ermənistanı sülhdən uzaqlaşdıran istənilən addım və təhriklər ölkəmiz tərəfindən cavabını alacaq".

Bir sözlə, Prezident İlham Əliyev "Euronews"a verdiyi mesajlar son zamanlarda istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavab olub. Dövlətimizin başçısı bu platformadan məharətlə yararlanaraq həm bu gün "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin Azərbaycanın nəzarəti altında fəaliyyətinə aydınlıq gətirib, həm də Qarabağda yaşayan ermənilərin blokadaya alınması ilə bağlı yalanları ifşa edib, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin, Azərbaycanın atdığı hər bir addımın bütün regionda, dünyada sülhün əldə olunmasına xidmət etdiyini bir daha bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev onu da xatırlatdı ki, Ermənistan rəhbərliyi indiyədək digər öhdəliklərinin icrasından yayınmağa çalışsa da, sonda onları yerinə yetirməyə məcbur olub. Bu həm də ona işarədir ki, Ermənistan bu öhdəliklərini də yerinə yetirməyə məcbur olacaq. Əlbəttə, erməni xalqı da yaxşı anlayır ki, ikinci variant onlar üçün çox ağır nəticə verəcək. Azərbaycan Prezidenti də dedi ki, Ermənistanın başqa yolu yoxdur: "Ermənistan Cənubi Qafqazda sülh istəmirsə, istədiyi nədir? Onlar növbəti müharibə istəyirlərsə, bu, onlar üçün fəlakət olacaqdır və onlar bunu yaxşı anlayır. Hesab edirəm ki, Ermənistan hökuməti və oradakı revanşist qüvvələr aydın şəkildə dərk edirlər ki, bu, onların dövlətçiliyinin sonu olacaq". İndi söz Ermənistanındır. Bu ölkə son qərarını verməlidir, sülh, yoxsa "Dəmir yumruq"!

**RƏFİQƏ KAMALQIZI**



# Ermənistanın seçimi, yaxud Ermənistanı seçənlər

*Rusiyadan uzaqlaşmadan ABŞ-a yaxınlaşma İrəvana baha başa gələcək*

İrəvan Paşinyanın timsalında ikibaşlı oyun qurmağa çalışır. Baş nazir ərz edir ki, Rusiya Cənubi Qafqazdan getdiyinə görə onun yerini Amerika Birləşmiş Ştatları tutmalıdır. Yəni dolayısı ilə Ermənistan tək qalmağı sevmədiyini bildirir və birinin maşası, köləsi olmağı sağ qalmağın yeganə yolu kimi qəbul edir, daha doğrusu kiminsə qanadı, çətiri altında olmağı təhlükəsizliyin qarantı hesab edir. 1988-ci ildə Ermənistanda, sonra isə Qarabağda azərbaycanlıları öz yurdlarından “miatsum” anqırtısı ilə, zorla qovanda bunu xarici təşkilat və dövlətlərin köpəyi olaraq edirdi. Ona bu “cəsarəti” verən dairələr var idi.

Onlara arxalanan bu köpək yığını soydaşlarımıza qarşı bəşər tarixində misli görünməmiş elə vəhşilik törətdilər ki, bu gün barışıq üçün zərrə qədər, iynənin ucu ölçüsündə yer saxlamadılar. Yəqin ki, orta nəslin yadındadır, xüsusən də, Qarabağın aran və dağlıq hissəsindən zorla qovulan azərbaycanlılar hələ də ermənilərin onlara qarşı hansı vandallıqlar etdiklərini unutmayıblar. Bu gün ermənilərin Laçın yolu ilə arın-arxayın keçib Ermənistana getmələrini və geriyə Qarabağa qayıtmalarını və üstəlik də, bundan narazı da qaldıqlarını o dəhşətli günləri yaşayan keçmiş məcburi köçkünlər qəbul etməkdə çətinlik çəkirlər. Dünyanın bəzi ölkələri indiki vəziyyəti guya “humanitar fəlakət” adlandırırlar. Bu kəlmələri təkrar edərkən həya hissini itirənlər niyə həmin ermənilərə 25-30 il bundan əvvəl azərbaycanlılara qarşı etdikləri qeyri-insani hərəkətləri xatırlatmırlar. Yəni, 30 il bundan əvvəl dünyanın leksikonunda, lüğətində “insan haqqı”, “humanitar fəlakət” deyilən söz birləşmələri yox idi?

Zəngilan rayonu 1 aya yaxın Ermənistan silahlı qüvvələrinin tam mühasirəsində qaldı. Nə ABŞ, nə Rusiya, nə Fransa, nə beynəlxalq təşkilatlar, xüsusən də, indi ermənilərdən ötrü yaxasını cıran Beynəlxalq Qırmızı Xaç Komitəsi bir dəfə də olsun yüz minə yaxın zəngilanlının dərdinə şərik olmadı, ölüm-dirim savaşında onlara bir tikə çörəyi çox gördülər, sanki bu hadisə olmayıb kimi davrandılar. Əlbəttə bütün bunlar, ikili yanaşmalar, ikili standartlar, ayrıseçkilik həmin təşkilatlara və dövlətlərə münasibəti mənfiyə doğru dəyişir. Onların ermənilərin “fəlakət” yaşamaları barədə fikirləri ciddi qəbul edilmir. BQXT zamanında azərbaycanlıların yanında olsaydı, indi onun etdikləri səmimi qəbul edilərdi. Görünür, bütün bunlar, bu münasibətlər səbəbsiz deyil, yəqin azərbaycanlıları insan hesab etmirlər və onların da haqqının olduğunu unudublar. Bu gün nə dəyişib ki? Biz hələ ermənilərə onların bizə yaşatdıqlarının heç bir faizini belə yaşatmamışıq. Amma harayhəşirləri dünyanı başına götürüb.

...Kreml bu ay Ermənistanda keçiriləcək ABŞ-Ermənistan təlimləri ilə bağlı xəbərlərdən şoka düşüb, ehtiyat tədbirləri görməyə başlayıb. Bu yanaşma Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərində də vurğulanır. Bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) təlimlərinin ölkədə keçirilməsi məqsədəuyğun deyil, çünki onun sözlərinə görə, bu, Türkiyə və Azərbaycanın mənfi reaksiyasına səbəb ola bilər. Çərşənbə günü Peskov ABŞ və Ermənistan arasında keçiriləcək təlimlərlə bağlı xəbərləri şərh edib. “Xüsusilə indiki vəziyyətdə belə xəbərlər narahatlıq doğurur. Biz bu xəbəri dərindən təhlil edəcəyik”, - deyə o, müvafiq sualı cavablandırıb.

Ölkənin Müdafiə Nazirliyi çərşənbə günü, sentyabrın 6-da “Qartal tərəfdaşı-2023” təlimlərinin Ermənistan ərazisində keçiriləcəyini açıqlayıb. Məlumata görə, amerikalı və erməni hərbçilər sülhməramlı əməliyyatlarda birgə iştirak edəcəklər. Təlimlər sentyabrın 11-dən 20-dək ölkənin Müdafiə Nazirliyinin sülhməramlı briqadasının “Zar” təlim mərkəzində keçiriləcək. Ermənistan müdafiə departamentinin bəyanatında qeyd edildiyi kimi, iki ölkənin hərbçiləri “idarəetmə və taktiki rabitə sahəsində” təcrübə mübadiləsi aparacaq, həmçinin “münaqişə tərəfləri arasında münasibətlərin sabitləşdirilməsi” bacarıqlarını inkişaf etdirəcəklər.

Prinsipcə, ABŞ və Ermənistanın (eləcə də ABŞ və Azərbaycanın) təlimlər keçirməsi faktı o qədər də qeyri-adi deyil. Müdafiə xəttində NATO ölkələri uzun müddətdir ki, Cənubi Qafqaz dövlətləri ilə əməkdaşlıq edirlər. Məsələn, bu günlərdə Almaniyanın Hohenfels şəhərində çoxmillətli “Birlik Qılıncı-2023” təlimləri keçirilir. Onların çərçivəsində Ermənistanın hərbi həkimləri ABŞ ordusunun tibbi xidməti ilə birlikdə yaralıların təxliyəsi və müalicəsi bacarıqlarını məşq edirlər. Birgə “Qılınc-2023” təlimi avqustun 28-də başlayıb və sentyabrın 23-də başa çatacaq. Onlarda 17 dövlətin hərbçiləri iştirak edir. Lakin “Tərəfdaş Qartalı-2023” təlimlərinin özəlliyi ondan ibarətdir ki, onlar Ermənistanda keçiriləcək.

Buna baxmayaraq, hələ yanvar ayında Paşinyan KTMT təlimlərinin bu il ölkədə keçirilməyəcəyini demişdi. Bu təşkilata Ermənistan və Rusiyadan başqa Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan daxildir. Paşinyan KTMT təlimlərinin keçirilməsindən imtinasını Türkiyə və Azərbaycan tandemi tərəfindən yanlış şərh oluna biləcəyi ilə izah edib. Onun sözlərinə görə, Bakıda və Ankarada bunu Rusiya Federasiyası və Ermənistanın birgə Azərbaycan ərazisinə təcavüz etmək niyyəti kimi qiymətləndirmək olar. “Biz bu təlimi yersiz hesab etdik, çünki onlar Türkiyə-Azərbaycan tandemi üçün təhlükə yaradacaq. Gələcəklər, təlimlər keçirəcəklər, sonra biz bu təhlükə ilə baş-başa qalacağıq”, - Paşinyan bildirib.

Ermənistanın baş nazirinin KTMT-yə başqa iddiaları da var. O, xüsusilə qeyd edib ki, təşkilat Azərbaycanla hərbi münaqişə yaranacağı təqdirdə ölkəyə konkret hansı yardımı göstərməyə hazır olduğunu və onun hansı məsuliyyət sahəsinə malik olduğunu aydınlaşdırmalıdır.

Rusiya Federasiyası, Belarus, Qırğızıstan və Tacikistan silahlı qüvvələrinin iştirak etdiyi sentyabrın 1-dən 6-dək keçirilən “Döyüş Qardaşlığı” təlimlərində Ermənistan hərbçiləri iştirak etməyib. Yeri gəlmişkən, sentyabrın 6-da Ermənistanın baş nazirinin xanımı Anna Akopyan xanımlar və cənablar adlanan sammitə Kiyevə səfər edib. Böyük Britaniya, İspaniya, Çexiya, Türkiyə, İsrail də daxil olmaqla, bir çox ölkələrin birinci şəxslərinin həyat yoldaşları həmin tədbirdə iştirak ediblər. Ötən gün Paşinyan İtaliyanın “Repubblica” nəşrinə müsahibə verib. O, bəyan edib ki, Rusiya Federasiyası Qərbi Ermənistanı Rusiyanı sıxışdırmağa yönəlmiş tədbirlər görməyə sövq etməkdə ittiham edir. Paşinyanın sözlərinə görə, bu, doğru deyil. “Əksinə, görürük ki, Rusiyanın özü atdığı və ya atmadığı addımlara görə bölgəni tərk edir. Bunun səbəbləri nələrdir? Biz bilmirik. Bu məsələ ilə bağlı öz müşahidələrimiz ola bilər, amma heç nə deyə bilmərəm”.

Qeyd edək ki, ABŞ həqiqətən də son vaxtlar Cənubi Qafqaz istiqamətində nəzərəçarpacaq dərəcədə fəallaşıb. Vaşinqton da Moskva kimi Laçın dəhlizi ilə Ermənistandan Dağlıq Qarabağa maneəsiz hərəkətin tərəfdarıdır. Məsələn, Dövlət Departamentinin sözçüsü Vedant Patel avqustun 15-də keçirdiyi brifinqdə deyib: “Biz Azərbaycan hakimiyyətini kommersiya, humanitar və şəxsi avtomobillərin bu dəhlizdə sərbəst hərəkətini bərpa etməyə çağırırıq”.

Buna baxmayaraq, nə Ağ Ev, nə də Ermənistan hökuməti ölkənin Avro-Atlantik inteqrasiyasının indi və ya uzunmüddətli perspektivdə zəruriliyindən danışmır. İrəvanda Rusiyanın (MDB, Aİİ) iştirakı ilə dövlətlərarası layihələrdən çıxmaq da müzakirə olunmur. Əksinə, Rusiya ilə Ermənistan arasında iqtisadi əlaqələr dinamik inkişaf edir.

Maraqlı təsadüf: Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstana səfəri zamanı müsahibəni Ermənistan Müdafiə Nazirliyinin “Tərəfdaş Qartalı 2023” təlimlərini elan etdiyi gün verib. Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanla danışıqların hazırkı vəziyyətindən danışan Ceyhun Bayramov qeyd edib ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz yolun açılması 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın bir hissəsidir. “Kommunikasiyaların açılması çox vacibdir, çünki nəqliyyat əlaqələri, ticarət və sairə təkcə tərəflərə fayda və gəlir gətirmir, eyni zamanda, regionda sülh prosesini dönməz edir. Belə ki, ölkələr bir-birinə sıx bağlı olur. Eyni zamanda, təkcə bizim regionda deyil, həm də Ukraynadakı müharibə də diqqətə alınmaqla onun hüdudlarından kənarda baş verən geosiyasi proseslər bizə Şərq və Qərbi birləşdirən yeni nəqliyyat marşrutlarının açılmasını diktə edir. Marşrutlara həm Avropa İttifaqı, həm də Mərkəzi Asiya dövlətləri və daha sonra Şərq tərəfindən güclü tələbat var. Bu mənada Azərbaycan ərazisindən keçən Orta Dəhlizin əhəmiyyəti böyükdür. Təkcə ötən il bizim ölkəmizdən yük axını 70 faiz artıb. Tələbat çoxdur. Zəngəzur dəhlizi Şərq-Qərb yolunda elementlərdən biridir. Ekspertlər müəyyən ediblər ki, Zəngəzur dəhlizi vasitəsilə Orta Dəhlizə əlavə 5-8 milyon ton karqo göndərilə bilər. Bu, təkcə Azərbaycan və Ermənistan üçün deyil, həm də digər ölkələr üçün çox faydalıdır. 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında imzalanmış üçtərəfli bəyanatlara uyğun olaraq, üç ölkənin baş nazirlərinin müavinləri səviyyəsində işçi qrupu yaradılıb. Artıq üç ildir ki, işlər davam edir. Hansısa məqamda belə bir təəssürat yaranır ki, biz işləri yekunlaşdırmağa yaxınıq, lakin birdən - son dəqiqədə Ermənistan gözlənilmədən yeni bir iddia irəli sürür, bu da prosesi dalana sürükləyir. Bu, qeyri-konstruktivdir, həm də üçtərəfli Bəyanatın müvafiq maddəsinin pozulmasıdır. Həmin maddəyə görə, Ermənistan öz üzərinə yüklərin, vətəndaşların və nəqliyyat vasitələrinin maneəsiz hərəkətinə qarantiya vermək öhdəliyini götürüb. Bu, Ermənistan tərəfindən qeyri-konstruktiv olmaqla yanaşı, həm də ona zərər verir. Bu ölkə özünü gəlirlərdən məhrum edir, hərçənd bütün ölkələr arasında məhz onun öz iqtisadi vəziyyətini düzəltməyə və izolyasiyadan çıxmağa ehtiyacı var”.

Konkret fikirlərdir, Ermənistan tərəfi isə regiondakı münaqişəyə yeni oyunçular cəlb etməklə, onlara öz ölkəsində manevr imkanları yaratmaqla problemlərin çözümünü bir az da çətinləşdirir. Amma nə edirsə özünə edir, necə deyərlər, “yel qayadan nə aparar”.

**V.VƏLİYEV**

RAKURS



Mətanət Məmmədova

## *"Əli aşı"ndan da, "Vəli aşı"ndan da...*

Deməli, bu gün Tiktok sosial şəbəkəsində Cəlilabaddan olan bir kişinin paylaşdığı video ilə qarşılaşdıq. Söhbət rayon əhalinin sosial müdafiəsi mərkəzi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində bu kişiyə verilən 3-4 qoyunun vəziyyətindən gedir. Kişinin çəkdiyi videoda görünür ki, 2 qoyun özlərini güclə darta-darta irəliləyir, ikisi də ölüb qalıb maşının yanında. Kişi gileylənir ki, baxın, hər biri 400 manata sənədləşdirilən qoyunların halına baxın.

Həqiqətən də videoya tamaşa edərkən qoyunların vəziyyəti açıq-aydın görünür. Düşünürsən ki, yox, bu qoyunlar bu kişinin məşğulluğuna yarayası deyil. Əsla.

Görəsən bəs niyə? Nə üçün özünüməşğulluq proqramını həyata keçirənlər Cəlilabad sakininin məşğulluğu üçün bu xəstə qoyunları rəva görüblər? Axı ona qoyun verməklə özünüməşğulluğunu təmin etmək istəyiblər. Özünüməşğulluq üçün isə vətəndaşa hər hansı bir mal-heyvanın, əşyanın verilməsi onun digər sosial yardımdan uzaqlaşması deməkdir.

Əslində, bu proqram çox gözəl proqramdır. Biri var ki, dövlətdən müəyyən məbləğ çərçivəsində ünvanlı sosial yardım alasan, biri də var ki, özün qazanasan. Üstəlik işini yaxşı qura biləndə, yaxşı qazananda, gəlirin ünvanlı sosial yardımdan qat-qat çox ola bilir.

Lakin bu qoyunları görəndə bir anlığa bilmədik ki, gülək, yoxsa ağlayaq. Yazıq kişi bu qoyunlarla hansı işi qura, məşğulluq sahəsi yarada bilər ki?..

Qoyunlar heç evə çatmamış ikisi yolda ölmüş, qalan ikisi isə elə halsızcasına yeriyirdi ki, ya gələn il bu vaxta qədər mənzilbaşına çatarlar, ya da elə bu günlərdə o biri “yoldaşlarının” yanına gedərlər. Kişinin isə əlləri boş qaldı. Necə deyərlər, “Əli aşı”ndan da oldu, “Vəli aşı”ndan da. “Əli aşı”ndan ona görə oldu ki, var idisə, əvvəlki sosial yardımı əlindən çıxdı. “Vəli aşı”ndan da ona görə oldu ki, budur, qoyunlar göz qarşısındadır.

### Yazıq kişi gileylənməsin, bəs nə etsin?

Görəsən, bu qoyunları bu kişiyə rəva bilən qurumda necə, heç onların vəziyyətini görmək istəyən bircə nəfər də tapılmayıb? Yoxsa, özünüməşğulluq proqramı həyata keçiririk,- deyə, necə deyərlər, plan doldurmaqdır məqsəd. Əvvəllər işlədiyim rayonda da dəfələrlə bu cür hadisə ilə rastlaşmışdım. İnsanlar şikayətə gəlirdilər ki, dünən özünüməşğulluq üçün verilən inək gecə tövlədə murdar olub. Yaxud da verilən qoyun 3 gün sonra ölüb. İnək heç nə yemir. Belə getsə, ölüb gedəcək.

Maraqlıdır, məgər bu mal-heyvan vətəndaşa verilərkən, baytar həkimləri tərəfindən müayinədən keçirilmir? Keçirilirsə, gəlsin o baytar həkimlər cavab versin. Yox, əgər heç bu barədə baytar həkimlərə müraciət olunmursa, onda aid qurum cavab versin, camaat da bilsin ki, bu heyvanlar haradan, hansı qiymətə alınır və əhaliyə özünüməşğulluq məqsədilə verilir...

Bu proqramın icrası ilə əlaqədar dövlətimiz tərəfindən minlərlə manat dəyərində vəsait ayrılır. Belə isə bu xəstə, ölümcül, işə yaramayan, insanın məşğulluğuna deyil, sosial imtiyazını da itirməsinə səbəb qoyunlar haradan alınıb vətəndaşa verilir? Bu sualın cavabını eşitmək maraqlıdır, deyilmi?...



# Toyun oldu da, nikaha nə hacət?!



***10 il ərzində Azərbaycanda 175 956 uşaq qeyri-rəsmi nikahdan doğulub. Təsəvvür edirsiniz? Nikahı olmadan nə qədər qadın hamilə qalıb, nikahı olmadan nə qədər kişi hamilə qoyub. Suallar çoxdur. Nəyə görə rəsmi nikaha girmədən övlad dünyaya gətirilir? Burada ən çox kimin məsuliyyətsizliyi və məsuliyyəti var? Bu, problemdirmi və necə həll etmək olar?***

Fikrimcə, çox ciddi ictimai-sosial yükü olan problemdir. Əslində, qadağa və cəza sistemi bu məsələdə bir işə yaramır, çünki Azərbaycan sivil ölkədir və yetkinlik yaşına çatan hər bir vətəndaşının seçiminə hörmətlə yanaşmaq məcburiyyətindədir. Amma bu seçim ilə gələcəkdə doğulacaq uşaqların sosial həyatını, statusunu ləkələyəcəksə, deməli, düşünməli, müzakirə edilməli və həlli vacib olan böyük bir problem var.

Bizim cəmiyyətdə ailə qurmaq, evlənmək deyəndə toy edilib nümayişkaranə gəlin getmək, gəlin gətirmək başa düşülür. Əgər 500 nəfərin önündə toy etdinsə, rəsmi nikaha ehtiyac duyulmur, gənclər qanuni ailə sayılır. Ən böyük səhv də buradan başlanır. Gənclər toy edir, bir evdə vətəndaş nikahında yaşamağa başlayır, övladları dünyaya gəlir, ya uşaqpulu almaq üçün sənədə ehtiyac olanda, ya da uşaq məktəbə gedəndə rəsmi nikah yada düşür. Bu vaxtadək ailədə doğulan uşaqlar qeyri-rəsmi yolla, vətəndaş nikahından doğulmuş hesab edilir.

Araşdırsaq görərik ki, rəsmi nikahı olmayan ailələrdə ya hər iki tərəf, ya da qadın yetkinlik yaşına çatmamış evləndirilib. Azərbaycan qanunlarına görə, 18 yaş nikah yaşı hesab edilir, istisna hallar üçün 17 yaşı da məqbul hesab edir qanunlarımız. Amma bəzi bölgələrimizdə 13-15 yaşda belə qızlar evləndirilir, bu halda rəsmi nikah üçün müraciət edə bilməzlər, qanunla cinayət məsuliyyəti daşıdıqlarını bilirlər. Bu halda bir dini nikahla məsələni bitmiş hesab edirlər.



Çox narahat olduğum bir məsələ də var ki, bu da ailələrin və gənclərin dini nikahı rəsmi nikahdan daha üstün hesab etməsi məsələsidir. Problem ondadır ki, ailə böyükləri toyqabağı gəncləri dini nikaha girməyə məcbur etdikləri qədər rəsmi nikahı dilə gətirmirlər. Azərbaycan dünyəvi dövlətdir və ailənin dövlət tərəfindən qanuni tanınması üçün rəsmi nikah şərtdir. Əks halda dövlət o ailəni tanımır, orada doğulan uşaqlara görə hər hansı maddi öhdəlik daşımır. Uşaqlar üçün verilən müavinət də bu səbəbdən rəsmi nikahı olan ailələr üçün nəzərdə tutulub.

Fikrimcə, ailələrin, xüsusilə, gənclərin diqqətini sosial çarxlar, maarifləndirici video-roliklər, habelə, gənclərin və orta yaşlı nəslin çox aktiv olduğu sosial şəbəkələrdə təbliğatla rəsmi nikahın vacibliyinə yönəltmək mümkündür.

Bundan başqa doğuma hazırlaşan hər bir qadına qeydiyyatda olduğu qadın məsləhətxanasında rəsmi nikahın vacibliyindən danışılmalı, körpə doğulmazdan əvvəl bu işi reallaşdırmağa təşviq edilməli, uşağın doğumundan sonra rəsmi nikahı olmayan ailələri gözləyən çətinliklərdən bəhs edilməlidir. Niyə ata yeni doğulmuş uşağına öz soyadını vermək üçün doğum evində ərizə yazıb atası olduğunu sübut etməyə ehtiyac duymalıdır? Axı cəmi 5 manat rəsmi dövlət rüsumu və 5 dəqiqəlik bir müddətdə ailəni rəsmi nikahla təmin etmək mümkündür.

Rəsmi nikah olmayan ailələrin bir problemi də nikah üçün tələb olunan tibbi müayinədən keçməmələri, beləliklə də, gələcəkdə ailədə problemli uşaqların doğula biləcəyi ehtimalına yol açmalarıdır. Əgər rəsmi nikah üçün tibbi arayış aldıqdan sonra müxtəlif cür xəstəlik daşıyıcısı olduğunu bilən cütlüklərin evlənməkdən imtina etdiyi barədə rəqəmləri də nəzərə alsaq bunun vacibliyini də anlamış olarıq. Axı həm irsi, həm də daşıyıcısı olma ehtimalı olduğumuz xəstəliklər, AİDS kimi, Hepatitin azğınlaşmış virusları kimi xəstəliklər bu yolla daha geniş yayılma imkanı tapır.

Doğrudur, qanunvericiliyə əsasən, qeyri-rəsmi nikahdan doğulan uşaqların hüquqları ilə rəsmi nikahdan doğulan uşaqların hüquqları bərabərdir. Yəni, qanunda rəsmi nikahdan doğulan uşaq üçün nəzərdə tutulan hüquqlar qeyri-rəsmi nikahdan doğulan uşağa da şamil olunur. Lakin təcrübədə bu hüquqların reallaşmasında müəyyən çətinliklərin yaşandığı da müşahidə olunur. Çünki rəsmi nikahda ata və ana dəqiq bilinir və gələcəkdə uşağa qarşı hansısa qanun pozuntusu olarsa, qanun qarşısında məsuliyyət daşıyırlar. Qeyri-rəsmi nikahda isə atanın adı ananın razılığı ilə yazılır. Ona görə də, həqiqətən də, uşağın atası olmayan şəxsin adını yazdıra bilər ki, bu da uşağın öz atasını tanımadan böyüyəbilmə ehtimalını gücləndirir.

Yumruqlanan nağara, üfürülən zurna, bayağı mahnılar oxuyan müğənni, başı yeyib-içməyə qarışan 300 nəfər qonaq fonundakı toyxana ailə qurmaq demək deyil. Ailə, dövlətin təsdiqlədiyi sənədlə rəsmiləşir. Toy edib nikah kəsdirməyi gərəksiz hesab etmək, nələrisə gizlətmək, görməzdən gəlmək və ya qurulan ailəyə etinasız yanaşmaq deməkdir.

***Lalə Mehralı***

---



**Elçin Bayramlı**

# Tik-Tok bağlanacaq?

***Son dövrdə Azərbaycanda Tik-Tok sosial şəbəkəsində yaranmış vəziyyət ictimaiyyət arasında geniş müzakirələrə səbəb olub. Bu platformadan istifadə edən insanlar müxtəlif mövqelər ortaya qoyurlar. Cəmiyyətin bir hissəsi bu şəbəkənin bağlanmasını dəstəkləyir, digər hissə isə etiraz edir. Hər tərəfin öz arqumentləri var. Məsələyə hər iki tərəfdən baxmağa çalışaq.***

Bağlanmaya etiraz edənlər deyir ki, bəs Tik-Tok-da digər sosial şəbəkələr kimi adi boş platformadır və özü heç nə yaymır. Bütün şəbəkələrdə materialları yayanlar bizim insanlarımızdır. Üstəlik, bu şəbəkədə xeyli sayda faydalı kanallar var- sağlamlıq və tibb sahəsində maarifləndirici, elmi-texnoloji məlumatları yayan, yaradıcılıqla bağlı videolar paylaşan, sosial problemlərin işıqlandırılması ilə məşul olan və ya sadəcə xəbər yayan və s. Bir çox media orqanlarının, təşkilatların da burada kanalı var və insanlar onları izləyir.

Bağılanmanı dəstəkləyənlər isə deyir ki, bu şəbəkədə milli-mənəvi dəyərlərimizə zərbə vuran, uşaq və yeniyetmələrin əxlaqını pozmağa yönələn hər cür murdar videolar, +18 materiallar çoxdur. Hətta ən biabırçı videolara burada rast gəlmək olur. Həm də bu şəbəkədə videolar ardıcıl göstərildiyindən və qarşına nə çıxacağını bilmədiyindən hər cür rəzil səhnələri görürsən.

Göründüyü kimi, hər iki tərəfin arqumentləri əsaslıdır. Toparlasaq belə bir reallıq ortaya çıxır- bəli, Tik-Tok sadəcə boş platformadır, özü heç nə yaymır, orada materialları yayan bizik. Burada çox sayda faydalı kanallar da var. Lakin paralel olaraq ən qəbuledilməz videolar da burada daha çox yayımlanır. Demək, faydalı tərəflərdən daha çox zərər vuran tərəfləri var.

Baxmayaraq ki, rəhbəri olduğum TvPress.Az-ın Tiktokda böyük kanalı var və orada paylaşılan tv çıxışlarım və sosial problemlərlə, milli-mənəvi dəyərlərimizin müdafiəsi ilə bağlı digər videomateriallar yarım milyonadək baxılır, yenə də Tik-Tokun bağlanmasının tərəfdarıyam. Həm də təkcə onun yox, İnstaqramın da. Xalqımızın son 30 ildə aparılan qlobal psixotron terrordan salamat qalan mənəvi dəyərləri də bu şəbəkələrdə məhv edilir, gənc nəslə zərərli həyat tərzi, avaraçılıq, əyləncə təbliğ olunur.

Ümumiyyətlə, bütün sosial şəbəkələr saxta və zərərli məlumat yığınıdır. Dəyərlərimizi məhv edən təbliğat meydanıdır. Zərəri faydasından min dəfə çoxdur. İstənilən vaxt bir ölkədə təxribatlar və vətəndaş müharibələri törətmək gücündədirlər. Ərəb baharını xatırlamaq kifayətdir.

Qlobal şəbəkələrin açarı bizim əlimizdə deyil. Bu mərkəzlər istədikləri informasiyanın sürətlə yayımlamasını təmin edir, özlərinə sərf etməyən məlumatların isə bloklanmasını təmin edirlər. Məsələn, Ermənistanın işğalçı siyasəti, ermənilərin terror və soyqırımları ilə bağlı məlumatları yayan şəxslərə qarşı məhdudlandırma və blok qoyulur. Çünki Ermənistan hakimiyyətinin sahibləri bu qlobal şəbəkələrin sahibləridir.

Şəxsən son 15 ildə mənim bütün profil, kanal, səhifələrim bu səbəbdən dəfələrlə uzunmüddətli blok edilib və hazırda da hamısı məhdiyyətlər altındadır. Yaydığım materialı, yazdığım fikri çox az adama göstərir. Amma Tik-Tokda həmin çıxışlarımı paylaşanda yüzminlərlə, bəzən yarım milyon baxış olurdu. Bir də Kontakt və Telegram şəbəkəsində erməniləri ifşa edən materialları paylaşanda heç bir məhdudiyyət olmur. Bu 3 şəbəkə qlobalistlərin əlində deyil. Feysbuk, İnstaqram, Tvitter və Yutub isə qlobalistlərin əlindədir.

Ümumiyyətlə, neçə illərdir Azərbaycanda bütün sosial şəbəkələrin bağlanması, bir milli sosial şəbəkə yaradılmasını təklif edirəm. Əks halda olan-qalan dəyərlərimiz də məhv olub gedəcək, ortalıq saxta xəbər, dezinformasiya, təxribat xarakterli materiallarla dolacaq. Gənc nəsil də zombi kimi yetişəcək. Bunun qarşısı alınmalıdır.

# Əli Kərimli müxalifətə də ləkədir




Heç şübhəsiz ki, cəmiyyətin inkişafına və demokratik proseslərin sürətləndilməsinə təsir edən başlıca amillərdən biri də bütün qüvvələrin eyni mövqedən çıxış etməsi və hər bir irəli sürülən və milli maraqlara hesablanan ideyaların dəstəklənməsidir. Hazırkı məqamda Azərbaycanda monolit birlik və bərabərlik mövcuddur. 7-dən 77-ə qədər hər kəs Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Məhz bu birliyin nəticəsi olaraq Azərbaycan çox qısa müddətdə Ermənistanı məğlub edərək, işğal altındakı torpaqlarımızı azad etdi. Çox təəssüflər olsun ki, hakimiyyətlə xalq arasındakı güclü birliyə xələl gətirilməsinə cəhdlərin göstərilməsi halları mövcuddur. Lakin bu cəhdlər bütün hallarda uğursuzluğa düçar olub. Çünki siyasi cəhətdən böyük bilgilərə və məlumatlara malik olan xalqımız daxili ziddiyyətlər yaratmağa çalışanların hansı mənbədən təlimatlar aldıqlarını və məqsədlərinin nədən ibarət olduğunu anlayırlar. Bu baxımdan, məkrli xarici qüvvələrin və daxildəki sapı özümüzdən olan baltaların istək və arzuları puç olub. Bu gün də həmin qüvvələr eyni qara zolaqdadırlar. Yenə də ictimai rəyi çaşdırmağa cəhdlər göstərsələr də, peşman olub əski mövqelərinə qayıdırlar.

### Gültəkin Hacıbəyli indi də Nazim Baydəmirlinin həbsindən bəhrələnməyə çalışır

Xarici maraqlı qüvvələr müxaliflərə yeni planlar əsasında pozuculuq aktları törətməyə təhrik edir, dağıdıcı ünsürlər də çarəsiz şəkildə onların tapşırıqlarını yerinə yetirlər. Sadəcə bir fərq var ki, bu dəfə küçələrdə, meydanlarda polislə qarşıdurma yaratmaqla diqqət mərkəzinə çevrilmək planından imtina edərək, daha çox təxribatlarını sosial şəbəkələr üzərindən qururlar. Bəzən də törətdikləri cinayət əməllərinə görə həbs olunan şəxslərin ətrafında yalançı şou yaratmaqla ondan bəhrələnməyə çalışırlar. Son günlər Qubad İbadoğludan istifadə olunurdusa, artıq Nazim Baydəmirlinin həbsindən də yaralanmağa çalışırlar. Bu istiqamətdə daha çox Milli Şuranın üzvü Gültəkin Hacıbəyli hay-küy qaldırır. Tam şəkildə G.Hacıbəyli ilə N. Baydamirlini hansı əlaqələr birləşdirdiyini demək çətin olsa da, yalnız ortada olan fakt ondan ibarətdir ki, heç nədən G.Hacıbəyli N.Baydəmirlini müdafiə etməz. İti tamaha, yırtıcı nəfisə malik G.Hacıbəyli pul para almasa N.Baydəmirli haqqında tərifli sözlər söyləməz. Görünür, maliyyə yardımı aldığı üçün şivən metodundan istifadə etməklə aldığını hallandırmağa çalışır: "Keçmiş həmkarım, iş adamı, iqtisadçı-ekspert Nazim Bəydəmirlinin ona qarşı edilən haqsızlığa etiraz əlaməti olaraq aclığa başlaması xəbərindən çox məyus olmuşam. Vətəninə, xalqına bağlı ləyaqətli bir ziyalıya qarşı bu davranışın adı vicdansızlıqdır.Nazim müəllim nə edib ki? "Söyüdlüdə insanları zəhərləməyin, öldürməyin" demək cinayətdirmi?! "Mən ekologiya məhbusuyam" demək suçdurmu?!Çox mənasız işlə məşğuldur iqtidar. Beş addım irəlini görsə, bütün dayaqlarını itirdiyini anlayar.

Ancaq görmür və ya görmək istəmir". Maraqlıdır ki, G.Hacıbəylinin təqdim etdiyi tezisdən AXCP sədrinin müavini Seymur Həzi, AXCP Ali Məclisinin sədri Nurəddin Məmmədli də geninə-boluna istifadə edirlər. Sual vermək lazımdır ki, dünənə qədər Nazim Baydəmirlini tanıyırdınızmı? Bilirsinizmi N. Baydəmirli kimdir, nəçidir? Təbii ki, G.Hacıbəyli istisna olmaqla sonuncular N.Baydəmirlinin kimliyindən xəbərsizdirlər. Əgər əyani şəkildə N.Baydəmirlini N.Məmmədliyə və S.Həziyə göstərsələr, tanımazlar. Sadəcə, onların kartlarına pul və tezis göndərilib və tapşırılıb ki, bu şəxsin piarını qurun. Təbii ki, S.Həzinin və N.Məmmədlinin boyunlarındakı ip Ə.Kərimlinin əlində olduğundan, ondan da icazə alınıb. Beləliklə, tanımadıqları şəxs haqqında şirin-şirin sözlər yazıb, tərifli ifadələr səsləndiriblər.

### "Ə.Kərimlinin cinayətdən yayınmasının səbəbi onun dələduz siyasətçi olmasından irəli gəlir"

Qısaca onu qeyd etmək olar ki, bütün iyrənc və qanunaziddi hərəkələr dağıdıcı müxaliflər tərəfindən həyata keçirilir. Xüsusilə də, Ə.Kərimlinin fəaliyyəti ikrah və qəzəb doğurur. Onun dövlətçiliyə qarşı ermənipərərəst mövqeyi cəmiyyətdə haqlı narazılıqlar yaradır. Hüquq-mühafizə orqanlarının baş verənlərə seyrçi qalmaları təəccüb doğurur. Bəzən isə anlaşılmır. Necə ola bilər ki, şəbəkələşmiş troll dəstəsi ilə xalqın heysiyyatına toxunasan, hüquq-mühafizə orqanları da bunu bilə, lakin susa. Heç bir halda bu susqunluq anlaşılmır. Milli Məclisin deputatı Elşən Musayev o fikirdədir ki, Ə.Kərimlinin cinayətdən yayınmasının səbəbi onun dələduz siyasətçi olmasından irəli gəlir. E.Musayev "Səs" qəzetinə verdiyi açıqlamasında bildirdi ki, Ə.Kərimli bütün mənfi komponentlərə sahibdir: "Meydanda hər zaman dostlarını tək qoyan da, arada nifaq salan da, insanları müxalifətçilikdən küsdürən də, iyrəndirən də, liderini, tərəfdaşlarını öz maraqları naminə satan da Ə.Kərimli olub. Hamının bu və ya digər şəkildə mənfi və müsbət tərəfləri ola bilər. Amma Kərimlinin bütün tərəfləri mənfidir".

Bir sözlə, araşdırmalar və proseslər onu deməyə əsas verir ki, AXCP sədri Ə.Kərimli cəmiyyətdə olduğu kimi, müxalifət düşərgəsində də arzuolunmaz şəxsdir. Nəzərə alsaq ki, AXCP daxilində də çoxluq Ə.Kərimliyə qarşıdır. Deməli, bu gün müxalifəti zibilləyən əsas şəxs Ə.Kərimlidir. Ə.Kərimli siyasəti tərk edərsə, heç şübhəsiz siyasi arenada sivil müxalifət formalaşar. Bəlkə də cəmiyyətin müxalifətə olan mənfi münasibəti müsbət elementlərlə əvəzlənər. Lakin Ə.Kərimli siyasətə gəlir mənbəyi kimi baxdığından onun nəinki AXCP sədrliyindən, ümumiyyətlə, siyasəti tərk edə biləcəyi inandırıcı deyil. Bu isə yaxın perspektivdə ictimaiyyətin ləkəli və ağır durumda olan dağıdıcı müxalifətə münasibətinin dəyişməyəcəyini göstərir.

*İ.ƏLİYEV*



Təhmasib Novruzov

# Qafqazın "Yelena"sı...

***Son aylarda Azərbaycanın Qarabağ bölgəsində və Ermənistan adlanan layihə-dövlətlə şərti sərhədlərdə baş verənlər, bu baş verənlərin kontekstində dünyanın bəzi güclərinin sərgilədikləri mövqeyi müşahidə edir, düşünür, təhlil edir, dünya tarixində buna bənzər bir hadisənin olub-olmadığını saf-çürük etməyə çalışıram. Saf-çürüyün sonunda adekvat bir olayı, ya da qədim bir yazarın təxəyyülünün məhsulunu tapa bildim. Eramızdan 1200 il əvvəl, yəni günümüzdən 3200 il əvvəl buna bənzər hadisə qədim Troyada ya baş verib, ya da baş verdiyi haqqında Homer adlı bir yazar poema yazıb.***

Xatırlayırsınızmı, məşhur Troya müharibəsinin səbəbi nə idi? Sparta hökmdarı Menelayın Yelena adlı xanımını Troya hökmdarı Priamın oğlu Paris götürüb qaçırdır Troyaya. Və troyalıların bu hərəkətini qeyrətinə sığışdırmayan Menelay troyalılara güc gələ bilmədiyini anlayıb, dövrün ən böyük qəhramanı Axillesi köməyə çağırır. Sonda da Axillesin hazırlatdığı məşhur Troya atının sayəsində Troyanı məğlub edir. Poemada çox hadisələr baş verir. Zevsdən Afroditaya qədər bütün personajlardan danışmağa ehtiyac görmürəm. Yuxarıdakıları da ona görə sadaladım ki, aparacağım bənzərlik müqayisəsində həmin personajlara ehtiyac olacaq. İndi bir anlıq təsəvvür edin ki, qədim türklərin yurdu olan Qarabağda yaşayan haylar Yelenadır. Bu "Yelena"nı qeyri-rəsmi Ermənistan adlanan bir layihə dövlət saxlayır. Azərbaycanın ərazisində yaşayan bu Yelenanı ermənilər özləri saxlaya bilmir (necə saxlasınlar ki, onların özlərini o-bu saxlayır – T.N.) və gah şimala yalvarır, gah qərbə, hərdən də cənuba ki, arvadlarını kimsə saxlasın. Zatən, bizim ərazidə yaşadıqlarına görə, deyə bilərik ki, xon-dığa, onun-bunun saxlayacağı arvadını bu ərazidən çıxart, apar, öz evində kim saxlayır, gəlib saxlasın. Amma biz insanlıq eləyib dedik ki, cəhənnəm, indiyə kimi onu kimlər saxlayıb, saxlayıb.

Daha bundan sonra ağlını yığsın başına, ərindən (Yəni Ermənistan adlanan xiyardan -T.N.) boşansın, qaxılıb dinməzcə otursun yerində, biz də onun suyunu-çörəyini verərik. Di gəl ki, nə "Yelena" oynaşsız dayana bilmir, nə də ona ər olan dığalar dəstəsi onun hesabına qazancından vaz keçə bilmir. Əslində, "Yelena"nı biz qaçırmamışıq axı, ruslar iki yüz il bundan əvvəl o biri kişilərin əlindən alıb gətirib bizim yanımıza. İndi ruslar bizə etibar ediblər də... Bilirlər ki, bizdə əmanətə xəyanət olmaz! Bir müddət adam balası kimi qulluğumuzda dursalar da, sonradan özlərinə tapdıqları Parisə necə vuruldularsa, Paris hara fısqırtdısa, ora da cumdular. Sonra "Yelena"nın əri, yəni dığalar ölkəsi gördü ki, arvadını saxlaya bilmir, üz tutdu indiki dünyamızın Axillesi olan Amerikaya. Elə bildilər ki, "Axilles" gəlib omların arvadlarını tapıb, alıb verəcək özlərinə. Amma haradan? Axilles o Axilles deyil, zaman da o zaman deyil. Gözünə döndüyüm "Axilles" gördü ki, dığalar nə edəcəklərini bilmirlər, bundan istifadə etməyə qərar verdilər. Bir müddət Azərbaycana dedilər ki, "Yelena"nı azad burax, gördülər yox, "Yelena" deyir ki, mən buradan o zaman ayrılaram ki, mülkü də versinlər özümlə aparım. Azərbaycan da sağ və sol əllərinin baş barmağını soxdu orta və şəhadət barmaqlarının arasına tuşladı birin dığalara, birin də "Yelena"ya.

Xülasə, hələ də baş barmaq elə ordadı, tuşlanıb da hər iki tərəfə, amma "Yelena"nın əri deyir ki, yox, gərək arvadımızı mülküylə bərabər verəsiniz bizə.

Axilles orada qalıb neyniyim-necə eliyimdə, "Yelena" burada qalıb ərsiz (Öyrənmişin dözməsi də çətin olur axı!..-T.N.), dığalar da orada arvadlarını qurtarmağa kişilər axtarmaqda davam edir. Bilirlər ki, Parisdə kişilik yoxdu, ona görə onunla məzələnirlər ki, unudulmasınlar. Orda "Yelena"nı Parisə söz verirlər, o biri tərəfdə Axillesə, bu yanda iki yüz ildi "Yelena"nı saxlayan İvandan qorxurlar deyə, onlara "hə, hı" eləyirlər. Bizimkilər "Yelena"ya yemək gətirirlər ki, yazıqdı, nə qələt eləyibsə də, acından ölməsin, deyirlər yox, biz kişiyik (Ha...ha...ha... - T.N.), ölərik sizin çörəyinizi ona yedirtmərik.

İndi əlac qalıb Troya atına. Homer yazıb ki, o məşhur taxta atı Axilles düzəltdirib, amma 3200 il sonra indiki "Yelena"nı xilas etmək üçün güc, yəni Troya atını hazırlamaq gücünü nəzərdə tuturam, bizə düşəcək. Çünki mülk də bizimdi, mülkiyyət də, məmləkət də. Bu atı hazırlamaq da, "Yelena"nı dünyanın zorba-zorba kişilərinin əlindən almaq missiyası da bizim boynumuza düşür. Allah güc versin!

# Rusiya Türkiyə və Qətərlə birlikdə...

Moskva Ankara və Doha ilə birlikdə ən kasıb ölkələrə taxıl tədarük etməyə hazırdır. Bunu Rusiya prezidenti Vladimir Putin Soçidə Rusiya-Türkiyə danışıqlarının yekunları üzrə deyib. Putin bildirib ki, Prezidentin (Türkiyə) israr etdiyi kimi, Qara dəniz təşəbbüsünə qayıtmaq və Türkiyə və Qətərlə birlikdə ən yoxsul ölkələrə taxıl tədarük etmək üçün birlikdə çalışmağa hazırıq.

Bundan əvvəl Putin Rusiya Federasiyasının Türkiyədə emal üçün güzəştli qiymətlə 1 milyon ton taxıl tədarükünü və ən yoxsul ölkələrə pulsuz daşınmasını təşkil edəcəyini bildirib. Onun sözlərinə görə, Rusiya bu məsələdə Qətərin köməyinə ümid edir. Rusiya taxıl müqaviləsini canlandırmaq barədə düşünməyə hazırdır, ancaq şərtlər yerinə yetirildikdən sonra.



Prezident Vladimir Putin təsdiqləyib ki, Rusiya Federasiyası taxıl müqaviləsini canlandırmaq barədə düşünməyə hazırdır: "Prinsipial mövqeyimizi bir daha təsdiq etmək istərdim: biz taxıl sazişinin bərpası imkanlarını nəzərdən keçirməyə hazır olacağıq, mən bu gün bu barədə bir daha Prezident Ərdoğana dedim və biz bunu bütün razılaşmalar əldə olunan kimi edəcəyik. Rusiya kənd təsərrüfatı məhsullarının ixracı yerinə yetirilib".

*VƏLİ*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



# Kredit kartı mənganəsi: yararlı, ya zərərli?

***Ətrafımızda davamlı olaraq kredit kartı borcu olan, ödəyə bilməyən, beləliklə də, borcu günü-gündən artan insanları görür və ya eşidirik. İstər-istəməz kredit kartının əslində təhlükəli bir şey olduğu qənaətinə gəlirik. Bəs, əslində necədir?***







Kredit kartı nağd pula alternativ ödəniş vasitəsidir, istifadə etdikdən sonra təyin edilmiş müddət ərzində xərclərin banka aylıq və ya hissə-hissə ödənilməsi lazımdır. Əslində, kredit kartı borcverən deyil, sadəcə, nağd pula alternativ olan ödəniş alətidir. Əgər sizdə olmayan və ya olmayacaq pulla almaq yerinə nəsə almaq üçün kredit kartınızdan istifadə etsəniz, o zaman onu borc alətinə çevirəcəksiniz və beləcə həm təhlükəsini, həm də zərərinizi görəcəksiniz.

Kredit bank kartı debet bank kartından fərqli olaraq tamamilə başqa bank məhsuludur. Kredit kart sahibi də ondan mağazada və internetdə ödəniş etmək, bankomatdan nağd pul çıxarmaq, digər istifadəçiyə pul göndərmək üçün istifadə edə bilər. Lakin müştəri bütün bunları bank vəsaitləri hesabına həyata keçirir. Yəni bu o deməkdir ki, müştəri istənilən zaman bankın ona təqdim etdiyi kredit xəttindən istifadə edə, xərclədiyi vəsaitləri isə bir qədər gec qaytara bilər.

Kredit kartı öz xüsusiyyətlərinə görə debet kartlarından fərqlənir. Və bankdan məhz belə bir məhsul əldə edərkən daha sonradan xoşagəlməz vəziyyətə düşməmək üçün bütün nüansları dəqiqləşdirmək lazımdır. Kredit kartının əsas xüsusiyyətləri kredit limiti, güzəştli dövr və faiz dərəcəsidir. Kredit limiti – müştərinin müəyyən komissiya, yəni faiz dərəcəsi qarşılığında kartdan maksimum xərcləyə biləcəyi pul məbləğidir. Güzəştli dövr – kredit vəsaitlərindən faizsiz olaraq istifadə edilməsi mümkün olan zamandır. Bu dövr, adətən, 30-100 gün təşkil edir.

Müştəri kredit kartı əldə edərkən faiz dərəcəsi ilə yanaşı, ödəyəcəyi əlavə komissiya haqqları ilə də yaxından tanış olmalıdır. Bu komissiya haqqına bankomatdan nağd pul çıxarmaq, pul köçürməsinə görə komissiya, aylıq komissiya daxildir. Bununla belə, adətən ticarət-xidmət müəssisələrində nağdsız əməliyyatlara görə komissiya haqqı tutulmur.

Beləliklə, kredit kartı çox rahat hesablaşma aləti olmaqla, kifayət qədər də bahadır. Xərclədiyiniz borc vəsaitlərini nə qədər tez bir müddətdə geri qaytara bilsəniz, bank vəsaitlərini istifadə etdiyinizə görə bir o qədər az ödəyəcəksiniz. Kredit kartı üzrə borcu ödəmək üçün, sadəcə olaraq, bankomatda və yaxud bankın kassasında onun hesabını doldurmaq kifayətdir. Kredit kartları da debet kartları kimi müxtəlif ödəniş sistemlərinin, maqnit zolaq və yaxud çiplə təchiz edilmiş, təmassız texnologiyanı dəstəkləyib-dəstəkləməyən ola bilər.

Maraqlıdır, kredit kartı və taksit kart arasındakı fərqlər nədir? Taksit kartı müştərilərə banklarla partnyor olan şirkətlərdə, mal və xidmətlərin dəyərini münasib şərtlərlə ödəmə imkanı təqdim edir. Belə ki, istifadə edilən məbləğ faiz hesablanmadan, partnyordan asılı olaraq 1, 2, 3, 6, 12, 18 və ya 24 aya ödənilir. Kart üzrə borc müvafiq aylar ərzində hər ayın müvafiq tarixinədək banka ödənilir. Ödəniş müddətində borca faiz hesablanmır, lakin gecikmə halları zamanı cərimə faizi hesablanır.

Kredit kartının üstünlükləri isə güzəşt müddəti – kredit vəsaitindən faizsiz olaraq istifadə edilməsi mümkün olan müddət kəsiyidir. Kredit limiti – müştərinin müəyyən faiz dərəcəsi qarşılığında kartdan maksimum xərcləyə biləcəyi məbləği əks etdirir. Faiz dərəcəsi – güzəştli dövr bitdikdən sonra hesablanmış faiz məbləğinin dərəcəsidir.

Kredit kartı üçün müraciət etdikdə kredit üzrə mütəxəssis müştərinin aylıq gəlirlərini və xərclərini dəqiqləşdirir. İlkin təhlil aparıldıqdan sonra müştəriyə limit haqqında məlumat təqdim olunur. Qeyd edək ki, hal-hazırda ölkədə əksər banklar müştərilərinə kredit kartı məhsulunu təqdim edir. Limitin azaldılması və ya artırılması üçün banka müraciət etmək lazımdır.







Bir neçə il əvvəl ABŞ-ın Pittsburq şəhərindəki Carnegie Mellon Universitetində aparılan araşdırmada nağd pul xərcləyənlərin ödəniş anında beyinlərində ağrı və narahatlıq hiss etdiyi, lakin kredit kartları ilə xərcləmələrdə bunun aşkar edilmədiyi qeyd edilmişdi. Bu da ödənişin nağd pul yerinə kartdan xərclənməsi ilə əlaqələndirilir. Tədqiqat aparan alimlər kredit kartlarının insanlara dərman təsiri bağışladığını deyirlər. Dolayısı ilə nağd ödənməyən üsulla məhsul əldə etmək insanları rahatladır. Lakin sonra geri ödəniş prosesi problemli olarsa borc batağı təhlükəsi də yaranır.

Əslində, kredit kartı ondan istifadə etməyi bilənlər üçün faydalıdır. Sadəcə, onun sizə faydalarını və zərərlərini yaxşı ayırd etməyiniz lazımdır. Tutaq ki, bu gün kredit kartınızla alış-veriş edirsiniz, xərclədiyiniz məbləği təyin edilmiş müddət ərzində kartınıza geri qaytardığınız halda heç bir faiz hesablanmır. Lakin durmadan xərcləsəniz, həm nağdlaşmada, həm alış-verişdə kredit kartından istifadə etsəniz, müddət bitdikdə xərclədiyiniz məbləği yerinə qoya bilməsəniz ciddi maliyyə problemləriniz yarana bilər.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
8 sentyabr
2023-cü il

# “Onların bu addımı marketinq hiyləgərliyidir”




***“Bəzi banklar fırıldaqçılıq yolu ilə insanları özlərinə cəlb edirlər. Faiz adı altında talançılıqla məşğul olurlar. Əslində bu, tək banklarda deyil, adi mağazalarda da var. Misal üçün bu yaxınlarda Sədərəkdə olan yağış səbəbi ilə xalçaların qiyməti 10-30 manat qeyd edirdilər. Xalçaları almaq istəyənlər ora yaxınlaşdıqda isə başqa mənzərənin şahidi olublar. Qiymətlər qeyd olunandan daha yüksək idi. Misal üçün 30 deyə qeyd etdikləri xalça 200 manata satılırdı. Nəticədə onu qeyd etmək olar ki, bu sadəcə marketinq hiyləgərliyidir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Rauf Qarayev deyib.***

Onun sözlərinə görə, başqa mağazalarda da belə hallar yaşanır: ”Sahibkarlar müştərinin digər yerə getməsinin qarşısını almaq, gələn müştəriyə ən azı nəsə satmaq istəyirlər. Əsas müştəri qeyd olunan mağazaya gəlsin. Bundan sonra isə gələn müştəri psixoloji təsirlər nəticəsində oradan nəsə alıb gedəcək”

### İQTİSADÇI MÜNASİBƏT BİLDİRDİ

İqtisadçı sözlərinə davam edərək bildirib ki, banklara gəldikdə isə burada rəqabət var: ”Amma rəqabət çox vaxt qurulan marketinq hiyləgərliyindən keçir. Bu üsula hətta ölkənin ən iri bankları da əl atır. Biznes baxımından belə hallar olur. Banklar belə addım atdıqda krediti götürmək istəyən şəxslər xidmətdən kütləvi imtina etsələr, bank bu baxımdan öz siyasətini dəyişər. Bundan əlavə, Mərkəzi Bank da buna ciddi nəzarət etməlidir. Səbəb odur ki, banklar üzrə istehlakçıların hüquqlarının müdafiəsi onların səlahiyyətinə aiddir. Aldanan şəxslər rəsmi olaraq belə halların olması və bankın 10 faiz, sonradan istehlak krediti ilə bağlı 14 faiz qeyd edilməsi ilə bağlı sübutları Mərkəzi Banka təqdim etməlidir”.

***Ləman Sərraf***

# Bakıda leysan olacaq

XƏBƏRLƏR

***Bakıda və Abşeron yarımadasında sentyabrın 9-dan 10-u səhərədək fasilələrlə yağış yağacağı gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı ehtimalı var. Sentyabrın 10-da şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-28 mn /s, səhər və gündüz bəzi yerlərdə arabir 30-34 m/s-dək güclənəcəyi gözlənilir.***



Sentyabrın 12-dək ölkə ərazisində qeyri-sabit hava şəraitinin davam edəcəyi, fasilələrlə leysan xarakterli yağış yağacağı gözlənilir. Əsasən Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Qazax-Gəncə, Mərkəzi-aran, Qarabağ və Şərqi-Zəngəzur zonasının bəzi yerlərində yağıntıların intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var.

Şimal-şərq küləyi arabir 15-20 m/s, bəzi yerlərdə arabir 23-28 m/s, 10-da ayrı-ayrı yerlərdə arabir 30-33 m/s-dək güclənəcəyi gözlənilir. Çaylarda sululuğun artacağı, Balakən-Şəki bölgəsinin ərazisindən axan Katexçay, Şinçay, Kürmükçay,

Oğuz-Qəbələ bölgəsinin Göyçay, Girdimançay, Quba-Qusar bölgəsinin Vəlvələçay, Qaraçay, Daşkəsən-Gədəbəy və Gəncə-Qazax bölgəsinin Əsrikçay, Gəncəçay, Qabırrıçay, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin Gorançay, Quruçay, Köndələnçay çaylarından qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.



## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Azərreyl” 4 voleybolçu ilə müqaviləni yenilədi

***Qadın voleybolçulardan ibarət “Azərreyl” komandası yeni mövsüm üçün heyətini gücləndirməyə davam edir. Klubdan verilən məlumata görə, ölkəmizi Çağırış Kubokunda təmsil edəcək komanda baş məşqçi Cengiz Akarçeşmenin ardınca 5 oyuncu ilə danışıqları müsbət yekunlaşdırıb.***




Ötən mövsüm komandanın Azərbaycan çempionu olmasında pay sahibi olan blokçu Aynur İmanova, toppaylayıcı Raziyə Əliyeva, libero Asiyat Abuyeva və hücumçu Xanım Cəlilova ilə müqavilə yenilənib. Razılığa əsasən, onlar daha bir il “Azərreyl”in uğurları üçün çalışacaqlar.

Bu voleybolçularla yanaşı, Aişə Alismanova da yeni mövsümdən “Azərreyl”in formasını geyinəcək. Gənclər komandasından cəlb olunan 15 yaşlı hücumçu ilə rəsmi müqavilə imzalanıb.

# Gəncə “MDB-nin İdman Paytaxtı” seçildi

***Gəncə şəhəri 2025-ci il üçün “MDB-nin İdman Paytaxtı” seçilib. Bu barədə gənclər və idman naziri Fərid Qayıbov məlumat verib. Nazir bildirib ki, Gəncə bu ada II MDB Oyunları çərçivəsində MDB-nin Bədən Tərbiyəsi və İdman Şurasının Minskdə keçirilmiş iclasında layiq görülüb.***

Qeyd edək ki, III MDB Oyunlarına 2025-ci ildə Azərbaycan ev sahibliyi edəcək.





*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000